QARABAĞ AZƏRBAYCANDIR!

SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 226 (6190) 17 dekabr 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# Azərbaycanın Vətən müharibəsindəki hərbi-diplomatik uğurları və ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyi

Bax2



## Siyasi dialoqla bağlı iqtidarın təşəbbüsləri davam edir

Bax 4



*Siyasətdə etibarlı və davamlı münasibətlər mühitini təmin edən əsas amillərdən biri də dialoq prinsiplərinin bərqərar olunmasıdır. Ölkəmizdə demokratik ənənələrin formalaşması prosesini şərtləndirən dialoqun inkişafı naminə Azərbaycan iqtidarı son bir il ərzində müxtəlif təşəbbüslərlə çıxış edir.*

## Şuşa şəhəri ən qısa vaxtda dayanıqlı elektrik enerjisi ilə təmin ediləcək

Bax 4



Prezident İlham Əliyevin müvafiq fərmanına uyğun olaraq “Azərişıq” ASC işğaldan azad edilmiş ərazilərdə xüsusi dövlət əhəmiyyətli binaların elektrik enerjisi ilə təchizatını...

## Azərbaycanın xarici işlər nazirinin Böyük Britaniyanın dövlət naziri ilə telefon danışığı olub




Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovun Böyük Britaniyanın Avropa Qonşuluğu və Amerika üzrə dövlət naziri Vendi Mortonla telefon danışığı olub...

Bax 5

## ABŞ-ın populyar nəşri Azərbaycanın Vətən müharibəsindən yazır

Bax 3

ABŞ-ın populyar “FOREİGN POLİCY NEWS” jurnalının saytında AZƏRTAC-ın İdarə Heyətinin sədri, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) vitse-prezidenti Aslan Aslanovun Azərbaycanın Vətən müharibəsində...




## Rusiya XİN-in rəsmisi ABŞ tərəfindən Türkiyəyə qarşı sanksiyalar tətbiq olunmasını şərh edib




Rusiyadan S-400 zenit raket sistemlərinin alınması ilə əlaqədar ABŞ-ın Türkiyəyə qarşı tətbiq etdiyi sanksiyalar Birləşmiş Ştatların rəqabət üstünlüyü əldə etmək cəhdidir. AZƏRTAC xəbər verir ki, bunu Moskvada keçirilən brifinqdə Rusiya Xarici İşlər ...

Bax 4

## ATƏT-in 30 illlik fəaliyyətsizliyi




Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 12-də Prezident İlham Əliyev ATƏT-in Minsk Qrupunun Fransadan və ABŞ-dan olan həmsədrlərini qəbulu...

Bax 6

## Şəhid ailələrinə və müharibə əlillərinə qayğı prioritetdir



Torpaqlarımızın azadlığı, Vətənimizin müstəqilliyi və bütövlüyü uğrunda şəhid olmuş ailələrin dərdi nə qədər dərin olsa da, qürur hissləri də bir o qədər böyükdür. Bu hissləri onlara bəxş...

Bax 8

### Kiberhücumların sayı iki dəfədən çox artıb



Bax 11

### Rusiya eksperti: Azərbaycan 30 illik milli faciəyə son qoydu



Bax 12

### Kriptovalyutalar futbol bazarını necə ələ keçirir?




Bax 16

# Azərbaycanın Vətən müharibəsindəki hərbi-diplomatik uğurları və ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyi

*Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirməklə yanaşı, xalqımız bütünlüklə dövlətimizin başçısının ətrafında səfərbər oldu. Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi uğrunda gedən döyüşlər, qüdrətli ordumuzun şanlı tarix yazaraq düşmən üzərindəki sarsıdıcı zərbələri, eləcə də işğalı altında olan şəhərlərimizin, yaşayış məntəqələrimizin, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəkliklərin işğalçılardan azad edilməsi xalqımızda böyük inam və ruh yüksəkliyi yaratdı.*



### Vətən müharibəsindəki hərbi-diplomatik uğurlar

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etmək üçün rəşadətli Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. 44 gün ərzində Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sıg?ırt, S?u?ku?rataz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olundu.

2020-ci il noyabrın 8-i isə tariximizə ən şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın baş tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə ciddi təsir göstərdi. Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədov bildirib.

Elçin Əhmədov deyib ki, Vətən müharibəsinin 44 günü ərzində dövlətimiz, beynəlxalq hüquq prinsiplərini, xüsusilə BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutub öz ərazilərini azad etmək hüququndan istifadə edərək uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirdi. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarımızı şərtləndirdi. Azərbaycan dövləti oktyabrın 4-də Cəbrayıl şəhərini, 17-də Füzuli şəhərini, 22-də Zəngilan şəhərinin işğalçılardan azad olunması ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 874 və 884 saylı qətnaməni özü icra etdi.

Azərbaycanın hərbi-diplomatik qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsinin nəticəsində noyabrın 20-də Ağdamın və 25-də isə Kəlbəcərin işğaldan azad edilməsi noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın müvafiq maddəsinin yerinə yetirilməsini, eləcə də münaqişənin hərbi-siyasi həllini müəyyənləşdirdi. Bununla yanaşı, Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi nəticəsində BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan, eləcə də işğalçı qüvvələrin Azərbaycan Respublikasının Kəlbəcər və Ağdam rayonlarından çıxmasını nəzərdə tutan 822 və 853 saylı qətnamələr də məhz Azərbaycanın şərtləri ilə icra edildi. Bunun davamı olaraq üçtərəfli bəyanatın müvafiq maddəsinə əsasən Ermənistan silahlı qüvvələrinin 2020-ci il dekabrın 1-dən Laçın rayonundan çıxması Azərbaycan hərbi-diplomatik uğurlarının nəticəsi kimi qiymətləndirilməlidir.

### Beynəlxalq hüququn undamental prinsiplərinin ciddi şəkildə pozulması

Ermənistanın hərbi təcavüzü nəticəsində 2020-ci il sentyabrın 27-dən keçən bir ay ərzində dinc əhaliyə qarşı törədilmiş beynəlxalq cinayətlər onu təsdiq edir ki, Ermənistanın Azərbaycana qarşı etnik təmizləmə, soyqırımı və dövlət terrorizmi siyasəti 30 ildən artıqdır ki, bütün dünyanın gözü qarşısında davam etmişdir. Bundan başqa, sentyabrın 11-də Ermənistan silahlı qüvvələrinin cəbhə zonasından xeyli kənarda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsindəki çoxmənzilli yaşayış binasını gecə saatlarında raket atəşinə tutması nəticəsində 5-i qadın olmaqla 10 nəfər həlak olub, 16 qadın, 6-sı azyaşlı olmaqla 34 nəfər yaralanıb (onlardan 10 nəfəri məktəblidir). Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn bütün prinsiplərini, o cümlədən 1949-cu il tarixli Cenevrə konvensiyalarının əsas norma və prinsiplərini kobud şəkildə pozmaqla dinc azərbaycanlı mülki əhaliyə qarşı cinayət əməllərini törətmişdir. Ümumilikdə, Ermənistan ordusunun Gəncəyə oktyabrın 4-də, 11-də və 17-də raket və ağır artilleriya hücumları nəticəsində 10-u qadın, 6-sı uşaq olmaqla 26 nəfər həlak olub, 138 nəfər yaralanıb.

Beynəlxalq birliyin cəzasızlığından istifadə edərək faşist ideologiyası yürüdən işğalçı Ermənistanın hərbi təcavüzü nəticəsində oktyabrın 27-də Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Bərdə rayonuna "Smerç" yaylım atəşli reaktiv sistemdən atılan raket atəşləri nəticəsində 5 nəfər mülki şəxs, o cümlədən azyaşlı uşaq həlak olub, uşaqlar və qadınlar da olmaqla 13 nəfər ciddi yaralanıb. Bunun ardınca oktyabrın 28-də Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə şəhərinin dinc sakinlərin sıx olduğu əraziyə beynəlxalq hüquqla qadağan olunmuş kaset bombalarından istifadə edilməklə zərbələr endirilməsi nəticəsində 21 nəfər həlak olub, 70-dən çox insan isə yaralanıb. Ümumilikdə, Ermənistan ordusunun Bərdəyə 2 gün ərzində "Smerç" yaylım atəşli reaktiv sistemdən atılan raket atəşləri nəticəsində 26 nəfər həlak olub, 80-dən çoxu yaralanıb.

Bütün dünyanın gözü qarşısında dövlət terrorizmi siyasəti həyata keçirən Ermənistanın hərbi təcavüzü nəticəsində sentyabrın 27-dən keçən başlayaraq mülki insanlardan 94 nəfəri həlak olub, onlardan 30 nəfərdən çoxu uşaqlar və qadınlardır, 406 nəfər, o cümlədən 100-dən çox qadın və 30-dan çox uşaq yaralanıb.

Ermənistan bütün beynəlxalq hüquqi sənədləri, xüsusilə BMT Nizamnaməsinin I və II maddələrində, 1970-ci il 24 oktyabr tarixli beynəlxalq hüququn prinsipləri haqqında Bəyannamədə, eləcə də 1975-ci il 1 avqust tarixli ATƏM/ATƏT-in Helsinki Yekun Aktında ifadə olunmuş beynəlxalq hüququn əsas prinsiplərini kobudcasına pozub. Beynəlxalq hüququn normalarının erməni sayaq təfsiri dövlətlərin ərazi bütövlüyü və sərhədlərin pozulmasının qeyri-mümkünlüyü haqqında 1990-cı il noyabrın 21-də qəbul edilmiş yeni Avropa üçün Paris Xartiyasına da tamamilə ziddir və qəbuledilməzdir. Bununla yanaşı, Ermənistan BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasını ratifikasiya edib. Lakin buna baxmayaraq, uşaqlara qarşı zorakılıq əməlləri törətməkdən çəkinmir, istər müharibə, istərsə də atəşkəs zamanı öz çirkin niyyətlərini həyata keçirir. Ermənistanın Azərbaycan mülki əhalisinə və mülki obyektlərə birbaşa və qəsdən hücumları, beynəlxalq humanitar hüququn və insan haqlarının, xüsusilə 1949-cu il Cenevrə konvensiyaları və ona 1 saylı Əlavə, həmçinin Uşaqların hüquqlarının və İnsan hüquqlarının müdafiəsi, eləcə də fundamental azadlıqlara dair Konvensiyanın ciddi şəkildə pozulmasıdır.

### ATƏT-in Minsk qrupunun vasitəçilik missiyası və uğursuz ermənipərəst fəaliyyəti

Ermənistanın bu çoxsaylı beynəlxalq cinayətlərinin qarşılığında biz nəyin şahidi olduq? Otuz ildən artıqdır ki, erməni vandalizmi davam edir. Təcavüzkara qarşı heç bir təzyiq olmadı, dünya birliyi, xüsusilə münaqişənin nizama salınması üçün yaradılmış ATƏT-in Minsk qrupu Ermənistanın yürütdüyü faşist ideologiyası, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətini bütün dünyanın gözü qarşısında baş verən bu qanlı terror hadisələrinə seyrçi mövqedən yanaşdı.

Qeyd etmək lazımdır ki, 1992-ci il martın 24-də ATƏT çərçivəsində yaradılan Minsk qrupu və bu qrupun 1997-ci ildən həmsədrləri (ABŞ, Fransa və Rusiya) münaqişənin ədalətli həlli üçün təcavüzkara qarşı heç bir təzyiq göstərmək niyyətində olmayıb. ATƏT-in Minsk qrupuna həmsədrlik edən böyük dövlətlər münaqişədə kimin haqlı olduğunu gözəl başa düşürlər.

Ardı Səh. 3

# Azərbaycanın Vətən müharibəsindəki hərbi-diplomatik uğurları və ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyi

Əvvəli-Səh-2

BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi məlum 4 qətnamədə Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının, suverenliyinin bərpasının zəruriliyi bildirilir. Lakin tərəfsiz vasitəçilik missiyasını üzərinə götürmüş həmsədrlər Ermənistanın Azərbaycana təcavüzündən birbaşa danışmadan, Minsk qrupunun qəbul etdiyi sənədlərdə bu barədə heç nə demədən münaqişənin ədalətli həlli yolunda müsbət irəliləyişə nail olmaq çətindir. Bundan əlavə, əgər münaqişə tərəfləri öz aralarında razılığa gələ bilirdilərsə, onda Minsk qrupunun yaradılması nə məqsəd daşıyırdı və bu qurumun keçən dövr ərzində apardığı çoxsaylı danışıqların mənası nə idi?

Eyni zamanda, təcavüzkar Ermənistana qarşı heç bir əməli tədbirin görülməməsi ATƏT-in nüfuzuna ciddi xələl gətirməklə bərabər, onun tərkibində yaradılan Minsk qrupuna olan ümidləri də artıq heçə endirib. Bu səbəbdən, beynəlxalq birlik təcavüzkarı öz adı ilə çağırmalı, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun hüdudlarından kənarda yerləşən ətraf 7 rayondan etnik təmizləməyə məruz qalmış və öz doğma yurdlarından məcburən köçkün düşmüş azərbaycanlıların hüquqlarının bərpa olunmasına çalışmalıdır. Ancaq Minsk qrupu yarandığı vaxtdan indiyədək qəbul etdiyi sənədlərdə bir dəfə də olsun Ermənistanın işğalçılıq siyasətindən nəinki danışılmır, əksinə, müxtəlif vaxtlarda digər beynəlxalq təşkilatların da işğal faktının əks olunduğu sənədlərin qəbul edilməsinə etiraz edərək məsələnin yalnız Minsk qrupu çərçivəsində həll edilməsinə üstünlük verib, daha doğrusu, Azərbaycanın işğal edilmiş əraziləri terminini qəbul etməyiblər. Bu cür mövqe Ermənistanı daha da şirnikləndirməklə yanaşı, açıq formada olmasa da, mövcud işğal rejiminin qorunub saxlanılmasına yönəlmiş dəstək kimi qəbul edilməlidir.

Bununla yanaşı, müxtəlif vaxtlarda ATƏT-in Minsk qrupu həmsədrlərinin münaqişə ilə bağlı digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən sənədlərə yersiz müdaxilə edərək bu məsələni yalnız öz inhisarında saxlamağa çalışırdı. Müxtəlif vaxtlarda bu açıq-aşkar özünü göstərirdi. Məsələn, Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən növbəti sənədlərin - yəni, AŞPA-nın 2016-cı ilin qış sessiyasında Robert Volterin müəllifi olduğu "Azərbaycanın Dağlıq Qarabağ və işğal olunmuş digər ərazilərində zorakılığın artmasına dair" və Militsa Markoviçin müəllifi olduğu "Azərbaycanın sərhədyanı rayonlarının sakinlərinin qəsdən içməli sudan məhrum edilməsi" adlı sənədlərin qəbul olunacağı gözlənilirdi. Ancaq ATƏT-in Minsk qrupu həmsədrlərinin 2016-cı il yanvarın 22-də verdikləri bəyanatda deyilirdi: "Biz AŞPA və digər beynəlxalq təşkilatlara xatırladırıq ki, Minsk qrupu danışıqlar üçün qəbul olunmuş yeganə formatdır. Biz AŞPA üzvləri tərəfindən göstərilən marağı qiymətləndiririk. Lakin bildiririk ki, ATƏT-in Minsk qrupunun mandatına xələl gətirəcək və davam edən danışıqlar prosesini çətinləşdirəcək addımlar atıla bilməz". Bütün bunlar uzun müddətdir vasitəçilik missiyasında heç bir irəliləyişə nail ola bilməyən ATƏT-in Minsk qrupunun münaqişənin aradan qaldırılmasında maraqlı olmadığını bir daha göstərdi. Eyni zamanda, bu bəyanatın əsil mahiyyəti ondan ibarətdir ki, ATƏT-in Minsk qrupu həmsədrləri, işğal faktını qəbul etmək istəmirlər (?)! Onların mövqeyi Ermənistanın status-kvonu qoruyub saxlamaq siyasəti ilə üst-üstə düşürdü. 2020-ci il oktyabrın 19-da BMT Təhlükəsizlik Şurasının Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar keçirilmiş qapalı iclasında ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin mövqeyi açıq-aşkar təsdiqini tapdı.

### Azərbaycan Prezidentinin Ermənistanın yalan üzərində qurulmuş "yenilməzlik" mifologiyasını dağıtması tarixi Qələbəmizi şərtləndirdi

Prezident İlham Əliyev dekabrın 12-də ATƏT-in Minsk qrupunun Fransadan və ABŞ-dan olan həmsədrlərini qəbul edərkən demişdir: "Təəssüflər olsun ki, Minsk qrupu münaqişənin həllində heç bir rol oynamayıb. Halbuki bunu etmək üçün Minsk qrupu 28 il ərzində müvafiq mandata sahib idi. Mən son 17 il ərzində danışıqlarda iştirak etmişdim. Lakin müharibə zamanı dediyim kimi, Minsk qrupunun ideyalarla çıxış etmək və yaradıcı olmaq istiqamətində müəyyən fəaliyyəti olsa da, bunlar heç bir nəticə verməmişdir. Reallıq bundan ibarətdir".

Bununla yanaşı, tərəfsiz vasitəçilik missiyasını öz üzərinə götürmüş lakin 28 il ərzində işğal rejiminin qorunub saxlanılmasına yönəlmiş fəaliyyətsizlik göz qabağındadır. Bu baxımdan dövlət başçısı İlham Əliyev Minsk qrupunun həmsədrlərinin diqqətinə çatdırdı ki, Azərbaycan Ermənistan ordusunu və demək olar ki, məhv etdi və ərazimizdə cinayət rejiminə son qoyduq, erməni millətçilərinin üzdəniraq "artsax" xülyalarını dağıtdı, nəticədə xalqımız, ölkəmiz qələbə qazandı, çünki həqiqət və beynəlxalq hüquq bizim tərəfimizdə idi.

Qeyd etmək vacibdir ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq, 30 ildən artıq işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirilməklə yanaşı, düşmənin bu illər ərzində yaratdığı "yenilməzlik" mifologiyasını darmadağın etdi. Bununla yanaşı, Prezident İlham Əliyevin xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələri Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, davam edən hərbi əməliyyatlarla bağlı tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanaraq tutarlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, ölkəmizin haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. Həmçinin bu müsahibələr informasiya məkanında da düşmənin yalan üzərində qurulmuş təbliğat maşınına ağır zərbə vurdu və Ermənistanın təcavüzkar siyasətinin, eləcə də onun himayədarlarının ifşa olunması ilə nəticələndi.

Eyni zamanda, Azərbaycan Prezidenti hər zaman hücum diplomatiyasına və milli maraqlara əsaslanan siyasət həyata keçirərək Ermənistanın 30 ildən artıqdır ki, yürütdüyü işğalçılıq siyasəti və bunun bütün region üçün yaratdığı ciddi təhdidləri məntiqi arqumentlərlə dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Bununla yanaşı, Prezident İlham Əliyev Ermənistanın təcavüzkar siyasətini, habelə müharibə cinayətlərinin mahiyyətini açmaqla Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün konkret faktlarla təcavüzkarı ifşa etdi.

Dövlət başçısı hər zaman mühüm beynəlxalq tədbirlərdə dəfələrlə Ermənistanın işğalçılıq siyasətini ifşa edərək təcavüzkarın faşist ideologiyası yürütdüyünü və terrorizmin dövlət səviyyəsində dəstəkləndiyini bütün dünyaya bəyan edib. Xüsusilə, son 17 ildə Azərbaycan diplomatiyasının səyləri nəticəsində münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı, Avropa İttifaqı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və s. beynəlxalq təşkilatların sənədləri buna müvafiq hüquqi baza yaratdı. Nəticədə, bu, informasiya müharibəsində də Azərbaycanın haqlı mövqelərini əhəmiyyətli dərəcədə gücləndirdi, uzun illər Ermənistanın yürütdüyü faşist ideologiyası, xalqımıza qarşı etnik təmizləmə, soyqırımı, dövlət terrorizmi və işğalçılıq siyasətinin, eləcə də erməni yalanlarının dünya miqyasında ifşası istiqamətində əhəmiyyətli rol oynadı, tarixi ədalətin zəfər çaldığını şərtləndirdi. Xüsusilə, Prezident İlham Əliyevin 2019-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısı kimi mühüm beynəlxalq platformada qətiyyətlə söylədiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" devizi bir ildən sonra, xüsusilə 44 günün ərzində reallığa çevrildi xalqımıza böyük sevinc yaşatdı. Dövlətimizin başçısı birmənalı olaraq bildirib ki, Azərbaycanın işi haqq işidir və Qarabağ Azərbaycandır!

# ABŞ-ın populyar nəşri Azərbaycanın Vətən müharibəsindən yazır

ABŞ-ın populyar "FOREİGN POLİCY NEWS" jurnalının saytında AZƏRTAC-ın İdarə Heyətinin sədri, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) vitse-prezidenti Aslan Aslanovun Azərbaycanın Vətən müharibəsində qazandığı möhtəşəm Zəfərdən bəhs edən məqaləsinin geniş xülasəsi dərc edilib.




"Prezident İlham Əliyevin çevik addımları Azərbaycana qəti qələbə qazandırdı və regionda yeni reallıqlar yaratdı" başlığı ilə təqdim olunan materialda Vətən müharibəsinin yekunları, o cümlədən müasir hərb tarixində misli görünməmiş Şuşa əməliyyatı, 44 günlük müharibə nəticəsində işğalçı Ermənistanın kapitulyasiya aktı imzalamağa məcbur edilməsi, Azərbaycan Prezidentinin informasiya məkanında və diplomatik müstəvidə nail olduğu uğurlar, bölgədə yaranmış yeni reallıqlar barədə danışılır.

Qeyd edək ki, 1970-ci ildə təsis edilmiş "FOREİGN POLİCY NEWS" nəşrinin 100 mindən çox izləyicisi var.

AZƏRTAC-ın sözügedən məqaləsini bundan əvvəl İndoneziyanın "citayambersatu.com" və "warnaplus.com" saytları, Misirin "Aldiplomasy" informasiya portalı, Pakistanın "National Herald Tribune" qəzeti, Avropa İttifaqının "EU Politics", Rumıniyanın "News-24hours", Qırğızıstanın "Golden Bridge News", "Turktoday.info" portalları, Çilinin "Infogate" xəbər saytı da yayıb. Xarici KİV-lərin məqaləyə geniş yer ayırması Azərbaycanın dünya hərb aləmində yenilik olan müharibə təcrübəsinə, Qarabağın 30 il davam edən işğalına çox qısa müddətdə hərbi-siyasi yolla son qoyulmasına ictimaiyyətin və oxucu auditoriyasının marağından irəli gəlir.

# Yunanıstan portalında Azərbaycan həqiqətlərinə dair məqalədə dərc edilib

Yunanıstanın www.karfitsa.gr xəbər portalında Azərbaycan həqiqətləri ilə bağlı "QALA" Yunanıstan-Azərbaycan Dostluq Dərnəyinin məqaləsi dərc olunub.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, məqalədə tarixi faktlara istinadən ermənilərin Qafqazın aborigen sakinləri olmadığı, çar Rusiyası tərəfindən Azərbaycanın tarixi ərazilərinə köçürüldükləri, bu prosesin rus imperiyasının süquta uğradığı, bolşeviklərin hakimiyyətə gəldiyi illərdə və SSRİ dönəmində davam etdiyi bildirilib. Hər fürsətdə ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmələr apardıqları, qırğınlar və soyqırımları törətdikləri, daha çox ərazimizi işğal etməyə çalışdıqları barədə ətraflı məlumat verilib.


Σύλλογος Ελληνο-Αζερικης Φιλίας QALA

10 Δεκεμβρίου 2020, 16:06



Άρθρο του Συλλόγου Ελληνο-Αζερικης Φιλίας QALA

Οι Αρμένιοι δεν ήταν ποτέ οι αρχαιότεροι κάτοικοι του Καυκάσου. Αργότερα μεταφέρθηκαν σε αυτές τις περιοχές σε διαφορετικά στάδια. Αυτό μπορεί να φανεί σε ένα χάρτη που συνέταξε ο Γερμανός χαρτογράφος Sebastian Münster το 1544-1545. Ο χάρτης απεικονίζει την Καυκάσια Αλβανία, τον Colchis, την Iberia (σημερινή Γεωργία) ενώ το αρμενικό κράτος σημειώνονται έξω από τον Καύκασο. Η διαδικασία επανεγκατάστασης Αρμενίων στα ιστορικά εδάφη του Αζερμπαϊτζάν συνεχίστηκε κατά τη διάρκεια της βασιλείας της Τσαρικής Ρωσίας και αργότερα της ΕΣΣΔ. Έτσι, τον 18ο αιώνα, ο Καύκασος διαδραμάτισε σημαντικό ρόλο στην εξωτερική πολιτική της Ρωσίας, και ως αποτέλεσμα των πορείων του Πέτρου Α προς τις περιοχές της Κασπίας, οι Αρμένιοι άρχισαν να εγκαθίστανται σε αυτές τις περιοχές. Η Ρωσία προσπάθησε να δημιουργήσει εθνική υποστήριξη και να χρησιμοποιήσει τον Αρμενικό παράγοντα εναντίον του Ιράν και της Τουρκίας. Στις αρχές του 19ου αιώνα, συνεχίστηκε η επανεγκατάσταση των Αρμενίων στο έδαφος του Αζερμπαϊτζάν, ιδίως στην περιοχή του Καραμπάχ. Δεν ήταν τυχαίο το γεγονός ότι η Τσαρική Ρωσία απέλασε τους Αρμένιους στο Καραμπάχ. Η περιοχή είχε σημαντική γεωγραφική και στρατηγική θέση. Αυτό μπορεί να φανεί από την αναφορά του Sisianov στην έκθεσή του με αρ. 19 και ημερομηνία 22 Μαΐου του 1805. Ο Sisianov έγραψε ότι το Καραμπάχ είναι η πύλη προς το Αζερμπαϊτζάν λόγω της γεωγραφικής του θέσης. Επιπλέον, ένα έγγραφο με τίτλο

"Ermənilər qətl və soyqırımı siyasətinə sadiq qalaraq azərbaycanlılara qarşı qəddar tədbirlər görməkdə davam edirdilər. Onların hücumlarının nəticəsi birinci Qarabağ müharibəsi və 1992-1993-cü illərdə Azərbaycan ərazilərinin işğalı oldu. İşğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi ilə bağlı BMT-nin 4 qətnaməsi 28 il kağız üzərində qaldı", - deyə məqalədə bildirilib.

# Siyasi dialoqla bağlı iqtidarın təşəbbüsləri davam edir

***Siyasətdə etibarlı və davamlı münasibətlər mühitini təmin edən əsas amillərdən biri də dialoq prinsiplərinin bərqərar olunmasıdır. Ölkəmizdə demokratik ənənələrin formalaşması prosesini şərtləndirən dialoqun inkişafı naminə Azərbaycan iqtidarı son bir il ərzində müxtəlif təşəbbüslərlə çıxış edir. Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan islahatların prinsipial istiqamətlərindən biri siyasətdə peşəkar və demokratik münasibətlərin bərqərar olunmasından ibarətdir. Bu mənada siyasi dialoqun şaxələnməsi və iştirakçı tərəflərin sayının artırılması gözləniləndir.***

Ümummilli maraqlar və dövlətin rifahı naminə ölkədə dialoq mühitinin dəstəklənməsi strateji əhəmiyyətə malikdir. SİA-nın verdiyi məlumata görə, son zamanlar iqtidarın şahidi olduğumuz dialoq təşəbbüsləri siyasi proseslərdə iştirak edən tərəflər arasında sağlam münasibətlərin bərqərar olunmasına xidmət edir. Bu mənada heç də təsadüfi deyil ki, Azərbaycanda milli və siyasi həmrəyliyin inkişafı ilə bağlı fərqli təşəbbüslərin artım dinamikası müşahidə olunur. Hökumətin təşəbbüsü ilə cərəyan edən proseslər bilavasitə demokratik ənənələrin formalaşmasının təzahürüdür. Siyasi dialoq mühitinin təşviqi, eləcə də konkret məsələlərin, o cümlədən qanun layihələrinin, sosial problemlərin, siyasi və digər təzahürlərin müxalifət nümayəndələri ilə birgə müzakirə edilməsi artıq ölkəmizin siyasi reallığının ayrılmaz xüsusiyyətlərindəndir.

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin siyasi partiya rəhbərləri və ictimai fəallar ilə görüşləri davam edir. Növbəti görüşlər Milli Məclisin deputatları - Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə və Vətəndaş Birliyi Partiyasının sədri Sabir Hacıyev, həmçinin Ədalət Partiyasının sədri İlyas İsmayılov, Azərbaycan Sosial Demokrat Partiyasının sədri Araz Əlizadə, Azərbaycan Liberal Demokrat Partiyasının sədri Fuad Əliyev, Azərbaycan Azad Respublikaçılar Partiyasının sədri Kamil Seyidov, Cümhuriyyət Xalq Partiyasının sədri Bədrəddin Quliyev, Azərbaycan Xalq Demokratik Partiyasının sədri Rafiq Turabxan, Milli Konqres Partiyasının sədri İxtiyar Şirin və Azərbaycan Liberal Partiyasının sədri Əvəz Temirxan ilə ayrı-ayrılıqda mobil rabitə və videokonfrans formatında təşkil olunub.



Görüşlər zamanı Vətən müharibəsində qazanılmış möhtəşəm Qələbə və Zəfər paradı, müharibə zamanı tətbiq olunan yeni hərbi strategiyanın xüsusiyyətləri, xalq-dövlət-ordu birliyi, yeni yaradılmış "YAŞAT" Fondunun əhəmiyyəti və bu müstəvidə qazilərə, habelə şəhid ailələrinə göstəriləcək yardımlar, işğaldan azad olunmuş ərazilərdə aparılacaq böyük quruculuq işləri, Azərbaycanın artan geosiyasi statusu, Türkiyənin dəstəyi və ölkələrimiz arasında olan qardaşlıq münasibətlərinin perspektivləri, milli həmrəylik mühitinin qorunmasında siyasi partiyaların rolu, COVID-19 pandemiyasına qarşı mübarizədə cəmiyyət arasında sosial məsuliyyət hissinin aşılanmasında maarifçilik işinin birgə təşkili kimi aktual mövzular müzakirə edilib.

Azərbaycanda ümummilli həmrəyliyi yaşadan və müasir tariximizin ən parlaq səhifələrindən olan Vətən müharibəsi ətrafında fikir mübadiləsi aparılaraq bildirilib ki, əldə olunan qələbənin əsas qəhrəmanı Azərbaycan xalqı, Azərbaycan Ordusu və Ali Baş Komandandır. Məhz xalqın Azərbaycan Prezidenti İlham Əliyevə olan dəstəyinin və inamının nəticəsidir ki, 44 gün davam edən müharibə zamanı Azərbaycanda yaşanan mütləq birliyin şahidi olduq.

"Əldə olunan Qələbə sayəsində dövlətimiz öz inkişaf tarixində mahiyyət etibarilə yeni mərhələyə keçid alır", - fikrini səsləndirən Prezident Administrasiyasının rəsmisi qarşıda duran böyük quruculuq işlərində cəmiyyətin hər bir üzvündən təşəbbüskarlıq və fədakarlıq tələb olunduğunu vurğulayıb. Qeyd edib ki, cəmiyyətdə mövcud olan bütün potensialın səfərbər olunmasında siyasi partiyalar aparıcı rol oynamalıdır.

Siyasi partiyaların rəhbərləri ilə görüşlərdə Vətən müharibəsi kontekstində Azərbaycan və Türkiyə arasında qardaşlıq münasibətləri geniş müzakirə olunub. Qardaş Türkiyənin siyasi və mənəvi dəstəyinin qələbənin əldə olunmasında böyük rol oynadığını xatırladan Ə.Vəliyev vurğulayıb ki, Azərbaycan xalqı Türkiyənin bu dəstəyini müharibənin ilk saatlarından hiss edib. Tarixboyu müxtəlif sınaqlardan keçən Azərbaycan-Türkiyə birliyi bu dəfə də imtahandan uğurla çıxdı. Ortaq tarix, din, mədəniyyət, dil, ədəbiyyat, siyasət, etibarlı münasibətlər və səmimiyyət bu birliyi qoruyan əsas amillərdəndir.

Prezident Administrasiyasının rəsmisi siyasi partiyaların rəhbərləri ilə görüşlərində Qələbə mövzusu ətrafında danışarkən Azərbaycan Prezidenti İlham Əliyevin xalqa dekabrın 1-də etdiyi müraciətindən sitat gətirib: "Ümid edirəm ki, biz bölgədə bu gün və gələcək üçün yeni təhlükəsizlik, yeni əməkdaşlıq formatını təşkil etdik. Bu format nədən ibarət olacaq, bunu həyat göstərər. Hər halda biz bu yeni əməkdaşlıq formatının yaradılması üçün lazımi işləri gördük, öz torpaqlarımızdan düşməni qovduq və noyabrın 10-da imzalanmış Bəyanatda göstərilən məsələlər əgər bu gün öz həllini taparsa, onda bölgəmizdə yeni əməkdaşlıq çərçivələri yaradılacaqdır". Ölkə rəhbərinin bu fikirləri qazanılmış böyük qələbədən sonra Azərbaycanın regiondakı geosiyasi statusunun və rolunun artacağının qaçılmaz olduğuna işarə edir.

Ölkənin siyasi sisteminin əsas təsisatlarından olan siyasi partiyalar sözügedən proseslərdə fəal iştirak etməli, milli və siyasi birliyin, həmrəyliyin qorunması naminə bütün zəruri tədbirləri görməlidirlər. Əməkdaşlığın əhəmiyyətini və zərurətini xüsusi olaraq vurğulayan Ə.Vəliyev gələcək fəaliyyətin səmərəliliyi naminə yaranmış qarşılıqlı əlaqələrin dərinləşməsində maraqlı olduğunu da qeyd edib.

Müzakirə olunan məsələlər sırasında xüsusi maraq doğuran mövzulardan biri də işğaldan azad edilmiş ərazilərdə birgə yaşayış mühitinin yaradılması olub. Prezident Administrasiyasının rəsmisi əsrlərboyu Azərbaycanda formalaşmış multikulturalizm ənənələrinə toxunaraq bildirib ki, bu məsələdə informasiya manipulyasiyalarından və fərqli təxribatlardan çəkinmək lazımdır.

Siyasi partiyaların rəhbərləri Zəfər paradının müasir azərbaycanlının milli kimliyinin formalaşması prosesində rolu, Zəfər Günü, Anım Günü, həmçinin Vətən müharibəsində Qələbə ilə bağlı müvafiq orden və medalların təsis olunması, Bakı şəhərində Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yaradılması ilə bağlı Prezidentin qərarlarını yüksək qiymətləndirib və belə təşəbbüslərin bilavasitə milli birliyə xidmət etdiyini vurğulayıblar. Görüşlərin əhəmiyyətini bildirən partiya rəhbərləri milli dövlətçiliyik və demokratik ənənələrin inkişafı, habelə sağlam dialoq mühitinin dəstəklənməsi naminə irəli sürülən təşəbbüslərdə hər zaman iştirak etməyə hazır olduqlarını bildiriblər.

# Şuşa şəhəri ən qısa vaxtda dayanıqlı elektrik enerjisi ilə təmin ediləcək

Prezident İlham Əliyevin müvafiq fərmanına uyğun olaraq "Azərişıq" ASC işğaldan azad edilmiş ərazilərdə xüsusi dövlət əhəmiyyətli binaların elektrik enerjisi ilə təchizatını "Azərişıq Qarabağda" layihəsi çərçivəsində təxirəsalınmaz tədbirlərlə həyata keçirir. "Azərişıq" ASC-dən SİA-ya verilən məlumata görə, artıq Cəbrayıl şəhərində və Hadrut qəsəbəsində yerləşən xüsusi dövlət əhəmiyyətli binalar yeni çəkilən elektrik veriliş xətti vasitəsilə elektrik enerjisi ilə təmin olunub: "İndi əsas hədəfimiz Şuşa şəhərini də ən qısa vaxtda dayanıqlı elektrik enerjisi ilə təmin etməkdir. Bunun üçün artıq mal-material göndərilib, yeni xəttin çəkilişi ilə bağlı işlər görülür. Dağ və meşəlik həmçinin çətin relyefli ərazilər olmasına baxmayaraq "Azərişıq" ASC əməkdaşları qar və şaxtalı havada işlərini fədakarlıqla görür. Başqa bir təhlükə isə iş gedən ərazilərdə ermənilərin basdırdığı minalardı. Bu təhlükəni aradan qaldırmaq üçün ərazidə öncə mina



axtaranlar işləyir. Müəyyən olunmuş layihə üzrə ərazilər minalardan təmizlənir, daha sonra isə xətlərin çəkilişi həyata keçirilir. Mümkün olan ən qısa vaxtda "Şükürbəyli" yarımstansiyasından qidalanmaqla Şuşa şəhəri elektrik enerjisi ilə təmin olunacaq.

Əmin edirik ki, işğaldan azad olunmuş torpaqlarımızın hər bir nöqtəsinin elektrik enerjisi ilə təmin edilməsi üçün "Azərişıq" ASC Dövlət başçısının müvafiq tapşırıqlarını ən qısa vaxtda layiqincə yerinə yetirəcək".

## Rusiya XİN-in rəsmisi ABŞ tərəfindən Türkiyəyə qarşı sanksiyalar tətbiq olunmasını şərh edib



Rusiyadan S-400 zenit raket sistemlərinin alınması ilə əlaqədar ABŞ-ın Türkiyəyə qarşı tətbiq etdiyi sanksiyalar Birləşmiş Ştatların rəqabət üstünlüyü əldə etmək cəhdidir. AZƏRTAC xəbər verir ki, bunu Moskvada keçirilən brifinqdə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib.

XİN rəsmisi deyib ki, bu, qaydalara uyğun oynayaraq rəqabətə davam gətirə bilməyəndə dəha bir təzahürüdür. ABŞ rəqabət üstünlüyünü təmin etmək üçün əlavə addımlar atır, baxmayaraq ki, bu addımlar qanundan kənardır. Bunlara hərbi-sənaye kompleksinin xətti ilə birtərəfli sanksiyalar da daxildir. O, həmçinin qeyd edib, Vaşinqton analoji sxemi KİV, energetika və digər sahələrdə də tətbiq edir.

## Florida ştatında həftəsonu Azərbaycan məktəbi fəaliyyətə başlayıb



ABŞ-ın Florida ştatında fəaliyyət göstərən Azərbaycan-Amerika Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə "Vətən" həftəsonu Azərbaycan məktəbi təsis edilib. Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, məqsəd Azərbaycan dilinin təbliği, xaricdə yaşayan azərbaycanlı uşaq və gənclərə doğma dilimizin, mədəniyyətimizin və tariximizin öyrədilməsidir.

Pandemiya ilə bağlı mövcud tələblərə uyğun olaraq, məktəbin təntənəli açılış mərasimi virtual formatda baş tutub. Artıq Azərbaycan dili dərslərinin onlayn tədrisi başlayıb. Dərslər xüsusi hazırlanmış proqram üzrə peşəkar təlimçilər tərəfindən aparılır. Azərbaycanın dövlət himninin səsləndirilməsi ilə başlayan dərslərdə ilk olaraq uşaqlara Azərbaycan əlifbası öyrədilir.

# Prezidentin tapşırığına əsasən Şuşa şəhəri planlı şəkildə bərpa olunacaq



Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma tədbirləri ilə əlaqədar Şuşa şəhərində qiymətləndirmə və inventarlaşdırma işlərinə başlanılıb. SİA xəbər verir ki, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin, "Azərsu" ASC-nin, Avtomobil Yolları Dövlət Agentliyinin, "Azərişıq" ASC-nin, "Azərenerji" ASC-nin, "Bakı Abadlıq Xidməti" MMC-nin nümayəndələri də daxil olmaqla ilkin olaraq 60 nəfərə qədər heyətdən ibarət və 6 əsas istiqamət üzrə fəaliyyət göstərəcək işçi qrupuna müxtəlif sahələri təmsil edən qurumların mütəxəssisləri cəlb edilərək müvafiq tapşırıqlar verilib.

Bu məqsədlə Azərbaycanın mədəni paytaxtı və bütün Qafqazın incisi hesab olunan Şuşa şəhərində infrastruktur obyektlərinin, torpaq sahələrinin və digər daşınmaz əmlakın mövcud vəziyyətinin ilkin qiymətləndirilməsi və inventarlaşdırılması istiqamətində işlərin aparılması nəzərdə tutulur.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bildirmişdi ki, Şuşa Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidə, Azərbaycan xalqının tarixinin, mədəniyyətinin, elminin böyük bir hissəsini əks etdirən vahid muzeydir.

İşçi qrupunun qarşısında duran əhəmiyyətli vəzifələrdən biri də Şuşa şəhərinin bütövlükdə ərazi və şəhərsalma vəziyyətinin, xüsusilə tarixi, mədəni və dini abidələrin mövcud vəziyyətinin, o cümlədən binaların dayanıqlılığının, arxitektura görünüşünün, yolların və digər infrastrukturun dəyərləndirilməsi və bərpası ilə bağlı geniş təkliflərin hazırlanmasıdır. Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən və dövlət başçısının bilavasitə nəzarəti altında qədim tarixi və memarlıq üslubu qorunub saxlanılmaqla Şuşa şəhərinin, tarixi və dini abidələrinin, muzeylərin planlı şəkildə bərpa olunması istiqamətində məqsədyönlü tədbirlər görüləcək. Qısa zamanda həyata keçiriləcək yenidənqurma işləri nəticəsində Şuşa dünyanın ən gözəl şəhərləri siyahısında öz layiqli yerini tutacaqdır.

# Azərbaycanın xarici işlər nazirinin Böyük Britaniyanın dövlət naziri ilə telefon danışığı olub




Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovun Böyük Britaniyanın Avropa Qonşuluğu və Amerika üzrə dövlət naziri Vendi Mortonla telefon danışığı olub. Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazirlər bölgədəki cari vəziyyəti 10 noyabr tarixli üçtərəfli bəyanatın icrası ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Tərəflər, həmçinin iqlim dəyişikliyi və atmosferə buraxılan zərərli maddələrin azaldılması mövzusu, bu xüsusda BMT çərçivəsində təşəbbüslərin dəstəklənməsi, eləcə də enerji sahəsində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Aleksandr Karavayev: Prezident İlham Əliyev Cənubi Qafqaz üçün sabitlik və inkişaf platforması ideyasını yenidən nəzərdən keçirməyi təklif edib

***Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakıda Zəfər paradı zamanı çıxışlarında Cənubi Qafqaz üçün iki elementdən - Türkiyə və Azərbaycandan ibarət kollektiv inteqrasiya missiyası barədə bəyan ediblər. Rusiya Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun elmi işçisi, politoloq Aleksandr Karavayev AZƏRTAC-a müsahibəsində bu barədə danışıb.***



Politoloq deyib: "Mən üç məqamı vurğulamaq istərdim. Birincisi, Azərbaycan və Türkiyə Kiçik Asiya ilə Xəzər dənizi arasında Rusiyaya və Rusiyanın layihələrinə münasibətdə dost mövqe tutan cazibə zonasıdır. Prezident Ərdoğan RF Prezidenti Vladimir Putinə Dağlıq Qarabağ münaqişəsi barədə mövqeyinə görə təşəkkürünü bildirəndə onun replikalarından çıxan nəticə belədir. Ərdoğan Minsk qrupunu iki hissəyə bölür - bir hissə işə əngəl törədir və öz funksiyalarının bir qismini sadəcə yerinə yetirmir, Rusiya isə siyasi liderlik mövqeyindədir. Ərdoğan çox dəyərli sözlər dedi ki, V.Putinin iştirakı olmasaydı, ya bu qələbə baş tutmaz, ya da münaqişə çox mürəkkəb forma alardı".

A.Karavayev Rusiya Prezidentinin televiziya müsahibələrində danışıqlar prosesini bir neçə necə açıqlamasını xatırlayır: "O deyirdi ki, oktyabr ayı ərzində, yeni döyüş əməliyyatlarının başa çatması və üçtərəfli bəyanatın imzalanması ərəfəsində Ermənistana qərar qəbul etmək təklif olunmuşdu, lakin Yerevan bu təklifi qəbul etməyə hazır deyildi və bir-birinin ardınca zərbə alırdı, Putin isə güclə dəstək metodlarından istifadə etmirdi".

Ekspert daha sonra deyib ki, Rəcəb Tayyib Ərdoğanın və İlham Əliyevin nəzərincə, Rusiya regionda ümumi təhlükəsizlik balansının mühüm elementidir.

A.Karavayevin fikrincə, ikinci məqam yeni regional arxitekturanın formalaşması ilə bağlıdır. Bu halda nəzərə alınmalıdır ki, regional landşaftı dəyişmək iqtidarında olan üç güclü və fəal aktor var - Azərbaycan, Türkiyə və Rusiya. Agentliyin müsahibi sözünə davam edərək deyib: "Prezident İlham Əliyev Cənubi Qafqaz üçün sabitlik və inkişaf platforması ideyasını yenidən nəzərdən keçirməyi təklif edib. Məsələnin bu cür qoyuluşu, əslində 1990-cı illərdən irs qalıb. Müxtəlif dövrlərdə əsasən Türkiyə tərəfindən, lakin başqa tərəflərdən də bu cür ideyalar səslənirdi. Dezinteqrasiya prosesləri və Cənubi Qafqazda, habelə Şimali Qafqazda döyüş əməliyyatları faktiki olaraq bu platformanı yaratmağa imkan vermirdi".

A.Karavayev hesab edir ki, postsovet dövründə Cənubi Qafqaz barəsində Türkiyə diplomatiyasının təşəbbüsü indi R.T.Ərdoğan, İ.Əliyev və V.Putinin gücü ilə həyata keçirilə bilər. Politoloq deyib: "Söhbət, məsələn, Rusiya-Azərbaycan-İran və ya Azərbaycan-Türkiyə-Rusiya qarşılıqlı maraq qruplarının yaradılmasından gedir. Burada Azərbaycan fəal rol oynayacaq. Platforma kapitalın və insanların yerdəyişməsi üçün nəqliyyat kommunikasiyalarının sərbəstliyini təmin etməlidir. Orada bütün aktorların və marağı olan biznes subyektlərinin, habelə, regiondan kənardakı dövlət subyektlərinin qüvvələri ilə layihələr həyata keçirilməlidir. Birinci element yerdəyişmə nəqliyyatının sərbəstliyi, ikinci element vətəndaşların şəxsi azadlığıdır, çünki söhbət qaçqınların və məcburi köçkünlərin geri qayıtmasından gedir. Üçüncü məqam bütövlükdə regionun inkişaf layihələridir, yəni elektrik enerjisi, su təchizatı və infrastruktur şəbəkəsinin sair elementləri genişlənməlidir".

Politoloq vurğulayıb ki, bu təşəbbüsün mühüm ünvan sahiblərindən biri Ermənistandır. O deyib: "Bakıda keçirilən brifinqdə prezidentlər Ərdoğan və Əliyev birmənalı şəkildə, açıq-aydın bəyan etdilər ki, əgər Ermənistan xoş məram nümayiş etdirərsə, bu ölkələrlə müsbət və səmərəli qarşılıqlı fəaliyyətə hazır olduğunu bildirərsə, Türkiyə və Azərbaycan sərhədyanı əməkdaşlıq çərçivəsində və daha geniş miqyasda Ermənistanla qarşılıqlı fəaliyyətə hazırdırlar. İlk növbədə, nəqliyyat kommunikasiyalarının açılmasından, onların təhlükəsizliyinin və keyfiyyətinin təmin edilməsindən söhbət gedir. Bu kommunikasiyalar beynəlxalq tələblər səviyyəsində olmalıdır. Liderlərin bu çıxışları Ermənistanla əməkdaşlıq təklifi deməkdir. Ermənistanda bu təklifin necə qəbul ediləcəyi başqa məsələdir. Hesab etmək olar ki, indi top Ermənistan tərəfindədir. Ən başlıcası, bu sözlər Bakıda, Zəfər paradında deyilib. Azərbaycan ona qarşı yönəlmiş təcavüzü aradan qaldırdı, düşməni darmadağın etdi, özünün təhlükəsizlik sistemini elə qurdu ki, bu təcavüz bir daha heç vaxt təkrarlanmasın. Yeni regional arxitekturanın ikinci hissəsi ağır, dramatik baqajdan imtina edərək açıq, transparent qarşılıqlı fəaliyyət modelini reallaşdırmağa hazır olan Ermənistan rəhbərliyi ilə və ya hər hansı iqtisadi fəaliyyət subyektləri ilə işləməyə hazır olmaqdır".

# Ukraynalı deputat: "2020-ci ildə Ukrayna və Azərbaycan arasında tərəfdaşlıq möhkəm dostluq və ən səmimi münasibətlərlə səciyyələnir"



Həmişə olduğu kimi, 2020-ci ildə də Ukrayna və Azərbaycan arasında tərəfdaşlıq möhkəm dostluq, əməkdaşlıq, qarşılıqlı anlaşma və ən səmimi münasibətlərlə səciyyələnir. Bu səbəbdən Ukrayna Prezidenti Vladimir Zelenski Azərbaycanın Ukraynanın əsas strateji tərəfdaşlarından biri hesab edir. Ukrayna Ali Radasının deputatı Vladimir Kreydenko bu fikirləri AZƏRTAC-a müsahibəsində bildirib. Onun sözlərinə görə, Ukrayna və Azərbaycan beynəlxalq birliyin qəbul etdiyi sərhədlər çərçivəsində bir-birinin ərazi bütövlüyünün ardıcıl tərəfdarları kimi qalmaqdadırlar.

Ukrayna Ali Radasının deputatı deyib: "Son illərdə ölkələrimiz arasında əmtəə dövriyyəsində artımın müsbət dinamikası müşahidə olunur. Bununla belə, ölkələrimiz qarşılıqlı faydalı ticarətin bundan sonrakı inkişafı üçün böyük potensiala malikdir. Biz bu potensialdan hələ tam istifadə etmirik. Əminəm ki, dünya bazarlarına çıxardığımız Ukrayna ixracat məhsulları siyahısında öz alıcılarını Azərbaycanda tapacaq çox şey mövcuddur, yaxud da əksinə".

Deputat vurğulayıb ki, ölkələrimizin liderləri Vladimir Zelenski və İlham Əliyev arasında çox yaxşı və səmimi münasibətlərin olması müsbət haldır və bu, Ukrayna-Azərbaycan əməkdaşlığının yeni, daha səmərəli inkişaf səviyyəsinə çıxmasına kömək edəcək. Vladimir Kreydenko deyib: "Əminəm ki, bu, energetika, nəqliyyat, investisiya, aviasiya sənayesi, kənd təsərrüfatı, turizm, humanitar və idman sahələrində bizim tərəfdaşlığımıza müsbət təsir göstərəcək".

# ATƏT-in 30 illlik fəaliyyətsizliyi




## Prezident İlham Əliyev: "Minsk Qrupu münaqişənin həllində heç bir rol oynamayıb"

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 12-də Prezident İlham Əliyev ATƏT-in Minsk Qrupunun Fransadan və ABŞ-dan olan həmsədrlərini qəbulu zamanı çıxışında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçilik missiyasını həyata keçirən ATƏT-in Minsk Qrupunun üzərinə düşən vəzifəni yerinə yetirə bilmədiyini, Azərbaycan bunu hərbi-siyasi vasitələrlə həll etdiyini bildirib. "Biz Ermənistanı döyüş meydanında məğlub edərək, işğalçını məğlubiyyətini etiraf etməyə və Ermənistanın kapitulyasiyası hesab etdiyimiz Bəyanatı imzalamağa məcbur etdik".

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan bu məsələni özü həll etmişdir: "Biz Ermənistanı döyüş meydanında məğlub edərək, işğalçını məğlubiyyətini etiraf etməyə və Ermənistanın kapitulyasiyası hesab etdiyimiz Bəyanatı imzalamağa məcbur etdik. Ermənistan iqtidarından başqa ölkənin bütün siyasi qüvvələri də bununla razıdır ki, bu, kapitulyasiyadır və onlar bunu alçaldıcı kapitulyasiya adlandırırlar. Bunun tam məsuliyyəti Paşinyanın diktatura rejiminin üzərinə düşür. Artıq qeyd etdiyim kimi, mən Prezident olaraq bu danışıqlarda 17 il ərzində iştirak etmişdim. Mənim Ermənistanın əvvəlki prezidentləri ilə də danışıqlar aparmaq təcrübəm olmuşdur. Burada hər hansı bir nəticə əldə olunmasa da, proses baş verirdi. Paşinyan prosesi məhv etmişdir. O, danışıqlar prosesinin formatını alt-üst etməyə cəhd etmişdir və onun təxribatçı hərəkətləri və bəyanatları danışıqları tamamilə mənasız etmişdir".

### "Paşinyan öz məğlubiyyətini etiraf etməyə, atəşkəs üçün yalvarmağa məcbur oldu"

"Mən dəfələrlə onun hərəkətlərinə və söylədiklərinə istinad etmişəm. Bu, tamamilə qəbuledilməz idi. Onun Azərbaycan dövlətinə və xalqına qarşı təxribatçı və təhqiredici əməllərinə, bəyanatlarına cavab verilməli idi və biz onu ciddi şəkildə cəzalandırdıq",-deyən dövlət başçısı onu da deyib ki, Paşinyan öz məğlubiyyətini etiraf etməyə, atəşkəs üçün yalvarmağa məcbur oldu: "Əslində o, bunu 44 günlük müharibə əsnasında hər gün edirdi və gündə bir neçə dəfə dünya liderlərinə zəng edirdi. Onun zəng etmədiyi avropalı lider tapmaq çətin olar. O, atəşkəsin təmin edilməsini xahiş edirdi. Lakin o, mənim şərtlərimə əməl etmək istəmirdi".

### "Mən onları rədd etdim və dedim ki, mənim yeganə şərtim var - torpaqlarımızdan çıx! Əks təqdirdə, Azərbaycanın dəmir yumruğunu görəcəksən"

Dövlət başçısı onu da deyib ki, Ermənistanın baş naziri Paşinyana dəfələrlə bildirərək demişdim ki, torpaqlarımızdan qeyri-şərtsiz çıxmalıdır: "Halbuki mənim yeganə şərtim var idi. O, isə bir neçə ay öncə mənə 7 şərt irəli sürmüşdü. Mən onları rədd etdim və dedim ki, mənim yeganə şərtim var - torpaqlarımızdan çıx! Əks təqdirdə, Azərbaycanın dəmir yumruğunu görəcəksən. Müharibə zamanı mən bir neçə dəfə bunu bəyan etmişdim. Onun hansısa naziri deyil, şəxsən Paşinyan bizə torpaqlarımızdan çıxmaqla bağlı tarix verən kimi biz dayanacağıq. Nəticədə bu, baş verdi və mən hər zaman olduğu kimi, verdiyim sözə əməl etdim. Paşinyan isə nə mənim, nə də öz xalqının qarşısında heç vaxt vədlərinə sadiq olmadı. O, yalançıdır və hesab edirəm ki, erməni xalqı artıq bunu anlayıb. O, indi də yalan danışmağa davam edir".

### "Biz Azərbaycan Ordusunun məğlubedilməz olduğunu nümayiş etdirdik"

"Noyabrın 9-dan 10-na keçən gecə o, Bəyanatı imzaladığı andan biz dərhal dayandıq. Növbəti saatda biz dayandıq. Biz, həmçinin qoşunların çıxarılmasına da vaxt verdik. Bundan əlavə, Rusiya Prezidentinin müraciəti əsasında biz onlara Kəlbəcərin boşaldılması üçün əlavə 10 gün vaxt verdik",-deyən dövlət başçısı onu da deyib ki, erməni quldurları və Ermənistan qoşunları Kəlbəcərdə etnik təmizləmə apararkən azərbaycanlılara heç bir gün də vaxt verməmiş və onları qətlə yetirmişdilər: "Azərbaycanlılar oradan qovulmuş, aprel ayının əvvəli, havanın çox soyuq olduğu vaxtda 3500 metr yüksəklikdə olan dağlardan keçməyə məcbur edilmişlər. Onların bir çoxu oradaca donmuşdu. Biz isə onlara əlavə vaxt verdikdə onlar nə etdilər? Onlar özlərinin tikmədiyi evləri yandırmağa başladılar. Onlar hər şeyi dağıtmağa başladılar. Mənə bir neçə gün öncə verilən məlumata görə, onlar orada bütün su elektrik stansiyalarını dağıtmışlar. Onlar bizim meşələri yandırmış və ağaclarımızı kəsmişlər".

### "Özlərini vəhşi kimi aparmışlar - bu cür davrananlara başqa ad vermək olmaz"

Prezident İlham Əliyev ermənilərin hərəkətlərini ancaq vəhşilik adlandıraraq bildirib ki, ermənilərin onilliklər ərzində ordularının məğlubedilməzliyi haqqında yaratdıqları mifi darmadağın etdik: "Özlərini vəhşi kimi aparmışlar - bu cür davrananlara başqa ad vermək olmaz. Ancaq biz sözümüzü tutduq. Biz müharibəni dayandırdıq. Hər kəsə bəllidir ki, bunu etməsəydik nə baş verəcəkdi. Ermənistan ordusu darmadağın edilmiş, ruhdan düşmüşdü və artıq nə isə etmək üçün heç bir imkana malik deyildi. Biz isə döyüş meydanında cəsarət, ruh yüksəkliyi və peşəkarlıq nümayiş etdirərək ermənilərin onilliklər ərzində ordularının məğlubedilməzliyi haqqında yaratdıqları mifi darmadağın etdik".

### "Biz Azərbaycan Ordusunun məğlubedilməz olduğunu nümayiş etdirdik"

"Biz Azərbaycan Ordusunun məğlubedilməz olduğunu nümayiş etdirdik. Biz işğal edilmiş ərazilərin böyük hissəsini, 300-dən artıq şəhər, qəsəbə və kəndi, o cümlədən Azərbaycanın tarixi Şuşa şəhərini 44 gün ərzində işğaldan azad etdik",-deyən Prezident İlham Əliyev görüşü zamanı bildirib ki, işğaldan azad olunan torpaqlara səfəri zamanı həmin torpaqların vəhşim kimi hansı hala salındığının şahidi olduğunun deyib: "Füzulidə bir dənə də olsun salamat bina yox idi, hər şey yerlə-yeksan edilmişdir. Bir dənə də bina tapılmadı ki, orada bayrağımızı qaldıraq. Ağdamda isə tamamilə dağıdılmamış yeganə tikili məscidin binasıdır. Araşdırdıqda məlum oldu ki, onlar Ağdamda məscid binasını məsafə ölçmək üçün saxlayıblarmış. Azərbaycan Ordusu hücuma keçdiyi təqdirdə onlar bu vasitə ilə məsafəni ölçməli idilər, yəni, məscid istinad nöqtəsi kimi istifadə edilirdi. Lakin biz Ağdamdan əks-hücuma keçmədik və onların gözləmədikləri istiqamətdən irəlilədik. Biz Ağdama bir güllə atmadan gəldik. Bunları danışmağıma səbəb bunun, ilk növbədə, həqiqət olmasıdır. Bundan əlavə, siz bir ildən artıq müddətdən sonra buraya səfərə gəlmisiniz. Mən Azərbaycan xalqı ilə açıq və səmimi olduğum kimi, sizinlə də eyni dərəcədə açıq və səmimi danışmaq istəyirəm".Dövlət başçısı, həmçinin onu da bildirib ki, bütün bu 44 gün ərzində mən xalqa yalnız həqiqəti söyləyib: "Paşinyan isə həm xalqına, həm də gündə bir neçə dəfə zəng etdiyi tərəfdaşlarına yalan danışırdı. O, bu gün də yalan danışmağa davam edir. Ancaq dediyim kimi, artıq bu məsələ narahatlıq doğurmur. Biz məsələni həll etdik. Biz ərazimizi işğaldan azad etdik. Müharibə zamanı mənə Azərbaycan Ordusunun itkiləri barədə çoxsaylı suallar verilirdi. Mən demişdim ki, biz bu məlumatı müharibə bitdikdə açıqlayacağıq. Belə də oldu, bizim qəhrəmanlarımızın - şəhidlərimizin fotoşəkilləri və onların adları televiziya vasitəsilə nümayiş etdirilir. Müharibə zamanı mən Ermənistan ərazisini işğal etmək niyyətində olmadığımızı bəyan etmişdim. Halbuki sizin də təsəvvür etdiyiniz kimi, bunun üçün bütün imkanlarımız var idi və həmin imkanlar bu gün də mövcuddur. Lakin bizim belə bir niyyətimiz yoxdur. Mənə bununla bağlı sual veriləndə dedim, xeyr, biz öz ərazimizi işğaldan azad etmək istəyirik və öz torpağımızda döyüşəcəyik. Biz sözümüzə sadiq olduq".

### "Bizim üçün Naxçıvanla quru əlaqəsinin yaradılması həyati əhəmiyyət kəsb edir"

"Eyni zamanda, bildirmişdim ki, bizim üçün Naxçıvanla quru əlaqəsinin yaradılması həyati əhəmiyyət kəsb edir. Biz buna siyasi yollarla nail olduq və Paşinyan bunu Bəyanat vasitəsilə imzaladı. Bununla da Naxçıvanın Azərbaycanın digər hissəsi ilə əlaqəsi təmin ediləcək. Bunun özü də Azərbaycan üçün vacib tarixi nailiyyətdir. Eyni zamanda, bu, regionun gələcəkdəki fəaliyyəti ilə bağlı müzakirələr üçün yeni imkanlar yaradır",-deyən dövlət başçısı onu da Gəncəni ballistik raketlə atəşə tutmaları, Bərdə və Tərtər şəhərlərinin kasetli və fosforlu sursatla atəşə məruz qalması, işğal edilmiş ərazilərdə qanunsuz məskunlaşdırma - bunların hamısı hərbi cinayətlərdir və onlar bununla fəxr edirdilər: "Sarkisyan və Köçəryan hərbi cinayətkardırlar. Dağıdılmış Ağdam məscidi qarşısında çıxışımda dediyim kimi, biz Sarkisyan və Köçəryanı məğlub etdik. Onlar məsuliyyəti Paşinyanın üzərinə atmaq istəyirlər. Ancaq mən demişəm ki, Paşinyan heç kimdir".

### "Münaqişə həll olunub. Azərbaycan bunu hərbi-siyasi vasitələrlə etdi"

Dövlət başçısı ATƏT-in Minsk qrupunun Fransadan və ABŞ-dan olan həmsədrlərini qəbulu zamanı çıxışında deyib ki, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə, ATƏT-in qərarlarına, digər beynəlxalq təşkilatların qərarlarına baxmayaraq, bu qədər illər ərzində münaqişə həll olunmadı. Ancaq bu gün münaqişə həll olunub: "Azərbaycan bunu hərbi-siyasi vasitələrlə etdi. Tez-tez sizdən və rəhbərlərinizdən, eləcə də yüksək rütbəli rəsmilərinizdən eşidirdim ki, münaqişənin hərbi həlli yoxdur. Mən isə deyirdim: Var! Tarix göstərdi ki, mən haqlı idim. Var idi! Fikrimcə, "hərbi variant yoxdur" deyənlərin indi özləri anlayır ki, var idi, çünki onlar, sadəcə, mövcud vəziyyəti olduğu kimi saxlamaq istəyirdilər".

"Mən ölkələrinizin yüksək rütbəli rəsmilərinə bunu dəfələrlə deyirdim ki, gedin, deyin onlara, təzyiq göstərin, hələ ki, gec deyil!. Lakin nə baş verdi? Müəyyən vaxt keçdi, ölkələrinizin liderləri bu sözləri dəyişməyə başladılar...Bir çox siyasətçilər hesab edirdilər ki, sülhün qorunması üçün yeganə yol status-kvonun qalmasından keçir",-deyən dövlət başçısı bildirib ki, biz bunu dəyişdik: "Biz göstərdik ki, status-kvo güc yolu ilə, şücaət, müdriklik, siyasət, səylərin səfərbər olunması, Azərbaycan xalqının həmrəyliyi, Azərbaycan hökumətinin iradəsi, Azərbaycan xalqının əzmkarlığı, Azərbaycan əsgərinin müzəffərliyi sayəsində dəyişdirilə bilər. Haqlı olduğumuzu göstərdik".

### "Biz onları məcbur etdik, Minsk qrupu yox!"

Dövlət başçısı çıxışı zamanı Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur edildiyini deyərək bildirib ki, ATƏT-in Minsk qrupu yox: "Onlar bunu heç vaxt könüllü imzalamazdılar. Biz onları məcbur etdik, Minsk "rupu yox! Biz və Prezident Putin. Bu, reallıqdır. Prezident Putinin müdaxiləsi və səyləri olmasaydı, bu gün, ehtimal ki, vəziyyət başqa cür olardı. Lakin biz planlaşdırdığımıza nail olduq. Biz işğal olunmuş bütün yeddi rayonumuzu qaytardıq. Biz qədim Azərbaycan şəhəri Şuşanı qaytardıq. Biz Hadrut qəsəbəsini qaytardıq. Xocavəndin bir hissəsini qaytardıq. Suqovuşanı və digərlərini qaytardıq. Əslində, planlaşdırdığımıza nail olduq"."İki gün öncə şanlı Qələbəmizə həsr olunmuş hərbi paradda mən söylədim ki, əgər Ermənistan faşizmi yenidən baş qaldırarsa, biz onun başını dəmir yumruqla əzəcəyik. Buna görə onlar çox diqqətli olmalıdır ki, hər hansı hərbi əməlləri planlaşdırmasınlar",- deyən Prezident İlham Əliyev bildirib ki, bu dəfə biz onları tamamilə darmadağın edəcəyik: "Bu, heç kəs üçün sirr qalmalı deyil. Lakin ümid edirəm ki, bu, baş verməyəcək. Bir sözlə, sülhməramlıların missiyası qüvvədədir. Bilirsiniz ki, sülhyaratma əməliyyatları müzakirə olunmuş razılaşmanın, Madrid prinsiplərinin bir hissəsidir. Lakin biz bunu heç zaman ciddi müzakirə etməmişik... Biz, sadəcə, ümumi şəkildə fikir mübadiləsi etmişik. Sülhməramlıların tərkibi necə olar bilər? Onlar hansı ölkələri təmsil edə bilər? Onlar qonşu, yaxud həmsədr ölkələr olmalıdır? Fikirlər müxtəlif idi. Şəxsən mən bu haqda heç zaman fikir söyləməmişəm, çünki deyirdim, bu, hələ tezdir. Biz əvvəlcə münaqişəni həll etməliyik. Biz heç zaman sülhməramlılara etiraz da etməmişik. Biz dedik, bəli, sülhməramlılar gəlsinlər və müəyyən vaxtda mülki şəxsləri, erməniləri və azərbaycanlıları qorusunlar. Bu, elə baş verir. Hazırda sülhməramlı əməliyyatlar Rusiya tərəfindən aparılır. Ermənistan və Azərbaycan da bunu dəstəkləyib".

### "Türkiyə-Rusiya Monitorinq Mərkəzi atəşkəs rejiminə nəzarət edəcək. Fikrimcə, bu, regional əməkdaşlığın çox yaxşı təzahürüdür"

"Eyni zamanda, bildiyiniz kimi, biz artıq Azərbaycanın Ağdam rayonunda Monitorinq Mərkəzinin yaradılması mərhələsindəyik. Bu məsələ noyabrın 10-da imzaladığımız Bəyanatda əks olunub. Türkiyə-Rusiya Monitorinq Mərkəzi atəşkəs rejiminə nəzarət edəcək",-deyən dövlət başçısı bildirib ki, Türkiyə ilə Rusiya arasında çox məqbul əməkdaşlığın rəmzidir. Bu, artıq reallıqdır: "Mən Minsk qrupunu səfərə dəvət etməmişəm. Lakin mənə məlumat verəndə ki, Minsk qrupu gəlmək istəyir, dedim gəlsinlər, etiraz etmirəm. Bəlkə onların mənə sözləri var. Əgər siz bunu kamera qarşısında söyləmək istəyirsinizsə, buyurun. Əgər istəmirsinizsə, mən onlara deyim getsinlər. Necə istəsəniz. Buyurun, sizi dinləyirəm".

Göründüyü kimi, artıq Minsk qrupu və onun həmsədrlərinin addımları məşhur el məsəlimizdə deyildiyi kimi, "öz cəzandır, çək!". Bizim artıq nə danışıqlara, nə Minsk qrupuna, nə də həmsədrlərə ehtiyacımız var. Bizim öz tənzimləyicimiz - "dəmir yumruğumuz" var. Necə ki, 44 gündə də bu yumruq öz tarixi missiyasını layiqincə yerinə yetirdi... Ədalət Zəfər çaldı. Ermənistan da, onun yanında duranlar da layiqli cavablarını aldılar. Prezident İlham Əliyevin sözləri ilə desək: "Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur edildi. Onlar bunu heç vaxt könüllü imzalamazdılar. Biz onları məcbur etdik, Minsk qrupu yox!...Bu, reallıqdır...".

Bir sözlə, biz Qələbə qazandıq. Haqq, ədalət, Azərbaycanımızın bütövlüyü bərpo olundu. Qarabağ Azərbaycandır!

*RƏFİQƏ KAMALQIZI*

# Vüqar Rəhimzadə: "Human Rights Watch"un hesabatı Ermənistanın insanlığa zidd əməllərinin etirafıdır"



"Azərbaycanın möhtəşəm Qələbəsi ilə başa çatan 44 günlük İkinci Qarabağ müharibəsi dünyanın əksər aparıcı dövlətlərinə, eyni zamanda, nüfuzlu beynəlxalq təşkilatlara sözün əsl mənasında tarix, hüquq dərsi keçilməsi ilə yanaşı, həqiqət anı oldu. Diqqət çəkən məqamlardan biri də budur ki, Vətən müharibəsi dövründə Azərbaycana qarşı əsassız iddialarla çıxış edən, feyk məlumatların yayılmasında maraqlı olan bir sıra beynəlxalq hüquq müdafiə təşkilatları bu gün, Azərbaycanın hərbi və siyasi Qələbəsindən sonra mövqelərində əsaslı dəyişikliklər edərək həqiqətləri etiraf edir, hazırladıqları hesabatlarda Ermənistanın müharibənin gedişində qadağan edilmiş ballistik raketlərdən və klastr bombalarından istifadə etdiyini təsdiqləməyə məcbur olurlar. Həmin qurumların beynəlxalq hüquqla qadağan olunmuş silahlardan istifadə edən Ermənistanı əvvəllər müdafiə edib bu gün isə həqiqəti etiraf etmək məcburiyyətində qalmaları bir daha Azərbaycanın bütün platformalarda, o cümlədən işğalçı dövlətlə döyüş meydanında ədalətli, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun mübarizə aparmasının etirafıdır. "Amnisty İnternasional" və "Human Rights Watch" beynəlxalq hüquq müdafiə təşkilatları İkinci Qarabağ müharibəsində guya Azərbaycanın da dörd hücumda klastr sursatlarına əl atdığını sənədləşdirdiklərini bildirirdilər. Bu beynəlxalq hüquq müdafiə təşkilatları istifadəsi qadağan olunmuş hərbi sursatlar vasitəsilə raket zərbələrinin üçünün Xankəndiyə, birinin isə Hadruta endirildiyini iddia edirdilər". Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, 44 günlük müharibə dövründə Almaniyanın ARD televiziya kanalına müsahibəsində dövlətimizin başçısı İlham Əliyev jurnalistin "Human Rights Watch" beynəlxalq hüquq müdafiə təşkilatında guya Azərbaycanın kasetli raketlərdən istifadə etməsi ilə bağlı dəlillərin olması ilə bağlı qərəzli sualına cavabında "Mən istərdim ki, onlar buraya gəlsinlər və o dəlilləri təqdim etsinlər. Eyni zamanda, Gəncəyə, Tərtərə, Bərdəyə getsinlər və ermənilərin hansı növ silahlardan istifadə etdiklərini görsünlər. Qərəzsiz olsunlar" cavabını verərək bu təşkilatın Azərbaycana qarşı aqressiv olduğunu, Ermənistanda insan haqlarının pozulması ilə bağlı heç bir şərh vermədiyini əsaslı şəkildə diqqətə çatdırmışdı.

Baş redaktor onu da əlavə edib ki, təşkilatın araşdırmaçılarının noyabr ayında Azərbaycana səfərləri zamanı əyani surətdə gördükləri həqiqətlər onların mövqelərində dəyişikliyin olması ilə nəticələnib. Məhz aparılan araşdırmalar zamanı üç rayona klastr bombaları ilə dörd hücumun gerçəkləşdirildiyi sənədləşdirilib. Bu hücumlarda ikisi uşaq olmaqla azı yeddi mülki şəxs öldürülüb, yenə də ikisi uşaq olmaqla 20 nəfər yaralanıb: "Human Rights Watch" beynəlxalq hüquq müdafiə təşkilatı dekabrın 15-də "Ermənistan Azərbaycana qarşı klastr bombalarından istifadə edib" adlı hesabatında bildirir ki, klastr sursatlarından istifadə müharibə qanunlarının pozulması deməkdir. Standart beynəlxalq nəşrlərə istinad əsasında o da vurğulanır ki, Ermənistanın arsenalında "Toçka" və "İsgəndər" ballistik raketləri, "Smerç" və Çin istehsalı olan WM-80 yaylım atəşi sistemləri var. Ermənistan ordusu və Dağlıq Qarabağdakı erməni hərbi qüvvələri altı həftəlik müharibə dövründə Azərbaycanda sıx yaşayış məntəqələrinə dəfələrlə klastr bombaları atıblar".

"Təşkilatın Avropa və Orta Asiya üzrə direktoru Hyu Uilyamson hesabatda klastr sursatlarının beynəlxalq sazişlə qadağan olunduğunu bildirib" söyləyən V.Rəhimzadə qeyd edib ki, Ermənistan bu silahlardan istifadəyə görə də beynəlxalq hüquq qarşısında cavab verməlidir: "Klastr sursatları qadağan olunduğundan onlardan heç bir şəraitdə istifadə edilməməli, yaxud başqasına verilməməlidir. Bu kimi faktların bir qayda olaraq Azərbaycana qarşı ədalətsiz və qeyri-obyektiv mövqeyi ilə seçilən "Human Rights Watch" beynəlxalq hüquq müdafiə təşkilatının hesabatında öz əksini tapması bir daha belə bir həqiqətin təsdiqidir ki, "haqq nazilər, amma üzülməz".

Baş redaktor bu ümumiləşdirməni aparıb ki, artıq bəzi beynəlxalq hüquq müdafiə təşkilatları da ölkəmizə qarşı qərəzli mövqelərinə son qoyaraq Ermənistanın faşist siyasətini, beynəlxalq hüquqa zidd cinayətlərini pisləməyə məcbur olurlar. Təbii ki, bu uğurumuz Azərbaycanın hərb meydanında olduğu kimi, beynəlxalq siyasi arenada da qətiyyətli mövqeyinə, ədalətə, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan siyasət həyata keçirməsinə söykənir. Artıq 30 ilə yaxın dövrdə işğal altında qalan torpaqlarımızda ədaləti bərpa edən Azərbaycan nəinki regional, hətta qlobal dünya siyasətində də yeni reallıqlar yaradaraq illərdir yaşanan hüquq problemini aradan qaldırır.

# Hikmət Babaoğlu: Zərərçəkmiş vətəndaşlarımıza dəyən ziyan xüsusi diqqətlə qiymətləndirilib



"Vətən müharibəsində mülki şəxslərə və onların mülkiyyətinə dəymiş ziyanın aradan qaldırılması daim Azərbaycan Prezidentinin diqqət mərkəzindədir. Hələ müharibənin aktiv fazası başa çatmamış bu istiqamətdə müvafiq addımlar atılmağa başladı və evləri erməni vandalları tərəfindən yararsız hala salınan vətəndaşlarımızın müvəqqəti məskunlaşdırılması və zəruri məişət ehtiyaclarının qarşılanması ilə bağlı operativ tədbirlər həyata keçirildi. Sonrakı mərhələdə isə yaranmış problemin birdəfəlik həlli ilə bağlı qərarlar qəbul edildi. Bunula bağlı Prezident İlham Əliyev tərəfindən "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" 2020-ci il 6 noyabr tarixində müvafiq Sərəncam imzalandı". Bunu SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin üzvü Hikmət Babaoğlu deyib.

Deputatın sözlərinə görə, sərəncama əsasən Azərbaycan Respublikasının Baş nazirinin rəhbərliyi ilə Dövlət Komissiyası və dərhal sərəncamın icrası ilə bağlı aidiyyəti üzrə 11 işçi qrupu yaradıldı: "Beləliklə 11 rayonda mülki əhaliyə, dövlət əmlakına, sahibkarlıq fəaliyyəti subyektlərinə, nəqliyyat vasitələrinə, kənd təsərrüfatı məhsulları və texnikasına, o cümlədən əhaliyə məxsus tələf olmuş heyvanlar üzrə dəymiş ziyanın müəyyənləşdirilməsi ilə bağlı müvafiq addımlar atıldı. İlkin qiymətləndirmələr başa çatdıqdan dərhal sonra Prezident İlham Əliyevin növbəti sərəncamı ilə problemin aradan qaldırılması üçün addımlar atılmağa başlandı. Bu Sərəncama görə təcavüz nəticəsində dağıdılmış və ya qəzalı vəziyyətə düşmüş yaşayış evləri üzrə məişət əşyalarına dəymiş ziyanla bağlı hər bir ailəyə 6000 manat, şəxsi əşyalara dəymiş ziyanla bağlı hər bir ailə üzvünə 1500 manat və digər ziyan dəymiş yaşayış evləri üzrə hər bir ailəyə 1000 manat məbləğində maddi yardımın ayrılması qərara alınıb".

H.Babaoğlu bildirib ki, maliyyələşməni nəzərdə tutulan maddi yardım yaşayış evlərinin sahiblərinə və ya onların qanuni nümayəndələrinə bank vasitəsi ilə ödəniləcəkdir: "Bu şəffaflığı təmin etməklə yanaşı zərəçəkənlərin ayrılan yardımı qısa müddətdə və maneəsiz almasına kömək edəcək. Yardımın miqdarı isə dəymiş zərərə adekvat olmaqla həm də şəxsi ziyanı da əhatə edəcək. Beləki evləri dağıdılmış və ya qəzalı vəziyyətə salınmış mülki əhali məişət əşyalarına görə 6000 manat və əlavə olaraq hər bir ailə üzvü şəxsi əşyalarına görə 1500 manat maddi yardım alacaqdır. Qismən ziyan dəymiş evlər üzrə isə ailə üzvlərin sayından asılı olmayaraq, hər bir ailəyə 1000 manat maddi yardım veriləcəkdir. Növbəti mərhələdə isə, mülki əhaliyə, dövlətə və sahibkarlıq fəaliyyəti subyektlərinə məxsus dağıdılmış və ya qəzalı vəziyyətə salınmış, qismən ziyan dəymiş yaşayış və qeyri-yaşayış sahələrinin təmir-bərpası işlərinin, həmçinin nəqliyyat vasitələrinə, kənd təsərrüfatı məhsulları və texnikasına, o cümlədən əhaliyə məxsus tələf olmuş heyvanlar üzrə dəymiş ziyanın aradan qaldırılması üzrə tədbirlərin həyata keçirilməsinə başlanılacaqdır. Göründüyü kimi zərərçəkmiş vətəndaşlarımıza dəyən ziyan ayrı-ayrı komponentlər üzrə xüsusi diqqətlə qiymətləndirilib və bundan sonrakı mərhələdə də vəziyyətə uyğun olaraq növbəti addımlar atılacaqdır. Bütün bunlar bir daha Prezident İlham Əliyevin siyasətinin mərkəzində vətəndaşın mənafeyinin ən öndə olduğunun göstəricisidir".

***Aysel Məmmədova***



# Sevinc Fətəliyeva: "Azərbaycan dövləti həyata keçirdiyi tədbirləri davam etdirməkdədir"

"Azərbaycan dövləti Vətən müharibəsi zamanı Ermənistanın hücumuna məruz qalmış mülki şəxslərə dəymiş ziyanın aradan qaldırılması istiqamətində həyata keçirdiyi tədbirləri davam etdirməkdədir. Məlumdur ki, Prezident İlham Əliyev tərəfindən "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" 2020-ci il 6 noyabr tarixində müvafiq Sərəncam imzalanıb. Həmin Sərəncama əsasən Azərbaycan Respublikasının Baş nazirinin rəhbərliyi ilə Dövlət Komissiyası yaradılıb. Həmçinin, bu Sərəncamın icrasının təmin edilməsi üzrə Baş nazir tərəfindən Komissiyanın işinin təşkil edilməsi məqsədilə müvafiq Sərəncam imzalanmış və aidiyyəti təyinatlı 11 işçi qrupu yaradılıb".

SİA-nın verdiyi məlumaga görə, bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.

Sevinc Fətəliyeva bildirib ki, yaradılmış işçi qruplarına 11 rayonda mülki əhaliyə, dövlət əmlakına, sahibkarlıq fəaliyyəti subyektlərinə, nəqliyyat vasitələrinə, kənd təsərrüfatı məhsulları və texnikasına, o cümlədən əhaliyə məxsus tələf olmuş heyvanlar üzrə dəymiş ziyanın müəyyənləşdirilməsi ilə bağlı müvafiq tapşırıqlar verilib. Sərəncamda həmçinin Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən vahid məlumat bazasının formalaşdırılması işlərinin həyata keçirilməsi tapşırığı da verilib.

"Xüsusi ilə vurğulanmalıdır ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə yaradılmış Dövlət Komissiyası tərəfindən dəymiş ziyanın müəyyənləşdirilməsi, qiymətləndirilməsi və bərpası istiqamətində işlər təxirəsalınmadan davam etdirilir. Dekabrın 14-də cənab Prezident tərəfindən ilkin mərhələdə zərərçəkmiş mülki əhalinin zəruri sosial ehtiyaclarının təmin edilməsi və onların məişət və şəxsi əşyalarına dəymiş ziyanın aradan qaldırılması ilə bağlı daha bir Sərəncam imzalanıb. Bu Sərəncamla təcavüz nəticəsində dağıdılmış və ya qəzalı vəziyyətə düşmüş yaşayış evləri üzrə məişət əşyalarına dəymiş ziyanla bağlı hər bir ailəyə 6000 manat, şəxsi əşyalara dəymiş ziyanla bağlı hər bir ailə üzvünə 1500 manat və digər ziyan dəymiş yaşayış evləri üzrə hər bir ailəyə 1000 manat məbləğində maddi yardımın ayrılması qərara alınıb. Yerli icra hakimiyyəti orqanları aidiyyəti ərazi üzrə ayrılması nəzərdə tutulan maddi yardımın yaşayış evlərin sahiblərinə və ya onların qanuni nümayəndələrinə bank vasitəsi ilə ödənilməsini təmin edəcəklər. Bu maddi yardımlar evləri dağıdılmış və ya qəzalı vəziyyətə salınmış mülki əhalinin məişət və şəxsi əşyalarına dəymiş ziyana görə və qismən ziyan dəymiş evlər üzrə hər bir ailəyə verilən pul vəsaitlərini əhatə edir. Evləri dağıdılmış və ya qəzalı vəziyyətə salınmış mülki əhali məişət əşyalarına görə 6000 manat və əlavə olaraq hər bir ailə üzvü şəxsi əşyalarına görə 1500 manat maddi yardım alacaq. Qismən ziyan dəymiş evlər üzrə isə ailə üzvlərin sayından asılı olmayaraq, hər bir ailəyə 1000 manat maddi yardım veriləcək. Növbəti mərhələdə isə, mülki əhaliyə, dövlətə və sahibkarlıq fəaliyyəti subyektlərinə məxsus dağıdılmış və ya qəzalı vəziyyətə salınmış, qismən ziyan dəymiş yaşayış və qeyri-yaşayış sahələrinin təmir-bərpası işlərinin, həmçinin nəqliyyat vasitələrinə, kənd təsərrüfatı məhsulları və texnikasına, o cümlədən əhaliyə məxsus tələf olmuş heyvanlar üzrə dəymiş ziyanın aradan qaldırılması üzrə tədbirlərin həyata keçirilməsinə başlanılacaq",-deyə S.Fətəliyeva vurğulayıb.

## Yüzlərlə erməni əsgərinin cəsədi aşkarlanıb



Axtarış işləri nəticəsində Dağlıq Qarabağda 890-dan çox erməni hərbçisinin cəsədi tapılıb. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, axtarış işləri aparılarkən 15 dekabr tarixinə 892 ölü hərbçinin cəsədi tapılıb. Sözügedən saytın məlumatına görə, bu barədə Fakt İnfoya qondarma rejimin Dövlət Təcili Xidmətindən informasiya verilib. Axtarışların davam etdiyi və göstərilən məlumatların bu gecə dəyişdiriləcəyi də qeyd edilib. Eyni mənbə bu gün Cəbrayıl və Füzulidə axtarışların davam etdiyini də bildirir.

# Şəhid ailələrinə və müharibə əlillərinə qayğı prioritetdir

***Torpaqlarımızın azadlığı, Vətənimizin müstəqilliyi və bütövlüyü uğrunda şəhid olmuş ailələrin dərdi nə qədər dərin olsa da, qürur hissləri də bir o qədər böyükdür. Bu hissləri onlara bəxş edən Vətən, torpaq sevgisi, dövlətimizin şəhidlərin ruhuna bəslədiyi ehtiram və onların ailələrinə tükənməyən qayğısıdır. Bildiyimiz kimi, şəhid ailələrinə diqqət və qayğı dövlət başçımızın xüsusi nəzarətindədir. Dövlətimiz Azərbaycanının ərazi bütövlüyü uğrunda vuruşanları, canını fəda edənləri heç vaxt unutmur, onlara və ailələrinə hər zaman həssaslıqla yanaşır.***



Dövlət başçısı və Birinci vitse-prezident Mehriban xanım Əliyeva şəhid ailələrinin yaşayış şəraitinin yaxşılaşdırılması üçün çoxsaylı tədbirlər həyata keçirməklə yanaşı, həm də həmişə onların dərdinə şərik olur, qayğıları və problemləri ilə maraqlanırlar. Bəlkə də dünyada belə bir ikinci dövlət tapmaq çətin olar ki, orada vətəndaşa, ağır vəziyyətdə yaşayan, doğmasını-yaxınını itirən insana bu qədər diqqət və qayğı göstərilsin. Azərbaycanda bu kateqoriyadan olan insanlar dövlətimizin başçısının tapşırığına uyğun olaraq hərtərəfli sosial təminat sistemi ilə əhatə olunublar. Bu günə qədər Azərbacan dövləti onlara maliyyə dəstəyi göstərib, mənzillərlə, minik avtomobillərlə təmin edib. Hər zaman onların sağlamlıq və sosial vəziyyəti ilə yaxından maraqlanıb. Şəhid ailələri və müharibə əlilləri mənzil, avtomobil təminatı və birdəfəlik sığorta ödənişi ilə yanaşı, orta hesabla dövlətdən aylıq 700 manat sosial ödəniş alırlar.

Göründüyü kimi, bu məsələ daim Ali Baş Komandan İlham Əliyevin diqqət mərkəzində olub və eyni mövqe bu gün də davam etməkdədir. Hazırda həmin vətəndaşların rifahının yaxşılaşdırılmasına xidmət edən çoxsaylı sosial proqramlar həyata keçirilir. Buna misal olaraq şəhid ailələri və müharibə veteranlarına pensiya, müavinətin təyin edilməsi, Prezidentin aylıq təqaüdünün verilməsini göstərmək olar. Məlum olduğu kimi, hazırda hər bir şəhidin vərəsəsinə 11 min manat sığorta ödənişi verilir. Həmçinin müharibə əlillərinə sığorta ödənişi kimi birinci dərəcə əlilliyi olan şəxslərə 8800 manat, ikinci dərəcə əlilliyi olan şəxslərə 6600 manat, üçüncü dərəcə əlilliyi olan şəxslərə 4400 manat ödənilir.

Şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün şəffaf, effektiv və əlçatan müvafiq platformanın yaradılması, bu sahədə şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsi məqsədilə Prezident İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) yaradılması haqqında Fərman imzalayıb. Fondun vəsaitləri şəhid ailəsi status alana və ya əlilliyi müəyyən edilənədək götürülən istehlak kreditlərinin və digər borc öhdəliklərinin qarşılanmasına, müalicə və psixoloji dəstək xərclərinin, təhsillə bağlı xərclərin ödənilməsinə, məişət şəraitinin yaxşılaşdırılmasına və digər istiqamətlərə yönəldiləcək. Fondun fəaliyyətində şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsi, həmçinin Fondun vəsaitinin formalaşması və idarə olunmasına nəzarət məqsədilə tanınmış ictimaiyyət nümayəndələrinin daxil olduğu Himayəçilik Şurası yaradılıb. Ən əsası odur ki, Fondun vəsaitləri Azərbaycan vətəndaşlarının, xarici ölkələrdə yaşayan soydaşlarımızın, digər fiziki və hüquqi şəxslərin könüllü olaraq maliyyə vəsaiti şəklində verdiyi yardımlar və qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşacaq. Elə buna görə də ediləcək yardımların əhatə dairəsi bu kateqoriyadan olan bütün insanlara şamil ediləcək. Azərbaycan Prezidentinin Fərmanı ilə "YAŞAT" Fondunun yaradılması dövlətimizin humanizm prinsiplərinə, əhalinin sosial təminatının və rifah halının daha da yaxşılaşdırılması siyasətinə sadiqliyini bir daha sübut edir.

Bu istiqamətdə diqqətçəkən məqamlardan bir də ondan ibarətdir ki, həmin kateqoriyadan olan insanlara artıq özəl sektor da yaxından kömək edir, öz vəsaitləri hesabına tikdirdikləri evlərdən, necə deyərlər, ürək genişliyi və böyük səmimiyyətlə ehtiyacı olan həmən insanlara təqdim edirlər. Bu isə insanlarımız arasında mövcud vətəndaş həmrəyliyinin bir nümunəsi kimi diqqəti cəlb edir. Digər tərəfdən isə bu, dövlət və özəl sektorun həmin kateqoriyadan olan insanlara diqqətin nişanəsi olaraq ölkəmizin gücünün, qüdrətinin göstəricisidir. Başqa sözlə, güclü sosial siyasətimiz məhz güclü iqtisadi gücümüzə əsaslanır.

**Röya Rasimqızı**

---

# Çilinin "Infogate" agentliyi İkinci Qarabağ müharibəsindən yazır


Infogate
Inicio › Destacado
Destacado Mundo
El futuro de la paz entre Armenia y Azerbaiyán requiere una importante revisión de enfoques
Por Equipo Infogate - 15/12/2020 167 0

La paz futura debe basarse en un acuerdo sostenible basado en la coexistencia y la cooperación. Sin embargo, el principal desafío no es el estatus de los armenios en Nagorno-Karabaj, sino la falta de voluntad de los Armenios para vivir con los Azerbaiyanos, ya sea en Azerbaiyán o incluso en Armenia.

El 10 de noviembre de 2020, Armenia y Azerbaiyán firmaron un acuerdo de alto el fuego, mediado por Rusia, que puso fin a lo que ahora se puede reconocer

Çilinin "Infogate" xəbər agentliyində Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyevin "Ermənistanla Azərbaycan arasında sülhün gələcəyi yanaşmaların ciddi nəzərdən keçirilməsini tələb edir" başlıqlı məqaləsi dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə İkinci Qarabağ müharibəsindən sonrakı vəziyyət təhlil edilərək, gələcəkdə mümkün olacaq sülhə dair proseslər barədə şərhlər təsvir olunur.

Müəllif bildirir ki, müharibədən sonra münaqişənin geosiyasi nəticələri ilə bağlı Qərb mediasında çoxsaylı məqalələr dərc edilib və beynəlxalq ekspertlər və jurnalistlər daha çox Cənubi Qafqazda dayanıqlı sülhün təsirlərindən yazmaq yerinə regional güclər və qərb blokunun maraqlarından yazmağa başlayıblar.

F.Şəfiyev yazır ki, ilk dəfə 1988-ci ildə Ermənistan millətçiləri Azərbaycanın Dağlıq Qarabağ bölgəsini Ermənistanla birləşdirməyə dair "miatsum" şüarını səsləndirdiyi bir vaxtda Ermənistanda lobbiçilər və influenserlər bunu öz müqəddəratını təyinetmə mübarizəsi kimi təqdim ediblər, Qərb siyasətçiləri və ekspertləri isə bu hərəkatı sovet sistemi ilə mübarizə imkanı kimi dəyərləndiriblər: "Qərb 100 əvvəl Osmanlı imperiyası ilə mübarizədə erməni məsələsindən istifadə etdiyi kimi Ermənistanın bu layihəsinə eyni şəkildə rəğbət bəslədi".

Müəllif qeyd edir ki, Avropa və ABŞ institutları tərəfindən maliyyələşdirilən bir sıra ekspert və alimlər müxtəlif proqram və layihələr vasitəsilə Ermənistan və Azərbaycanı barışdırmağa cəhd edirdilər, lakin hər dəfə Dağlıq Qarabağ tarixi Ermənistan ərazisi kimi göstərilirdi. Azərbaycan isə hər zaman Dağlıq Qarabağa ən yüksək muxtariyyət statusu verilməsi zəmanəti ilə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin geri qaytarılmasında israr edib. Müəllif münaqişə ilə bağlı vasitəçilərin təqdim etdiyi Madrid Prinsiplərindən yazır və bunun hər iki münaqişə ölkəsi tərəfindən qəbul edilməsinə baxmayaraq, beynəlxalq vasitəçilərin onun müddəalarını icra etmək üçün Ermənistana heç bir təzyiq göstərmədiyini diqqətə çatdırır.

Məqalədə bildirilir ki, Ermənistan qonşuları ilə yaxşı münasibətlərə meyillənməklə gələcəklə bağlı yeni yanaşma sərgiləməlidir. Belə ki, Yerevan Dağlıq Qarabağın müstəqilliyi və digər absurd iddiaları davam etdirsə, ölkə gələcəkdə müstəqil xarici və iqtisadi siyasəti olmayan daha dərin təcrid vəziyyətinə düşəcək. Müəllifin sözlərinə görə, ən acınacaqlısı odur ki, Ermənistandakı vəziyyəti pisləyən Qərb, bu ölkəni hazırkı vəziyyətə salan mövqeyi təkrar səsləndirməyə davam edir. Bu baxımdan, müəllif Fransa Prezidentinin anti-Azərbaycan açıqlamalarını və Fransa Senatının Dağlıq Qarabağın müstəqilliyini tanımağa səsləyən bəyanatını xatırladır. Qeyd edir ki, bölgədə Rusiya-Türkiyə əməkdaşlığı münaqişənin həllində aktiv iştirak edə bilməyən Qərb gücləri arasında qısqanclığa səbəb olub: "Rəsmi Moskva və Ankara Qafqazdakı iki etnik qrupu bir araya gətirmək üzərində işləyə bilər və bu kimi səylər dəstək görəcək".

---

# Azərbaycan əhalisinin sayı 10 milyon 121 min nəfəri keçdi



Bu il Azərbaycan əhalisinin sayında artım qeydə alınıb. Belə ki, ilin əvvəlindən ölkə əhalisinin sayı 54701 nəfər və ya 0,5 faiz artaraq 2020-ci il noyabr ayının 1-i vəziyyətinə 10 milyon 121 min 809 nəfərə çatıb. Əhalinin 52,8 faizini şəhər, 47,2 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Əhalinin bir kvadrat kilometrə düşən sayı 117 nəfər olmuşdur.

---

# Ermənilər Gürcüstan sərhədinə gedən yolunu bağladılar - Səbəb 150 əsir



Şirak şəhərinin sakinləri Ermənistan-Gürcüstan sərhədinə gedən Gümrü-Bavra yolunu bağlayıb. SİA xəbər verir ki, onların tələbi Ermənistanın Şirak bölgəsinin Xorom, Lancik, Azatan kəndlərinin əsir götürülmüş 150 sakinini geri qaytarmaqdır. Azatan kəndinin başçısı məsələni aydınlaşdırmaq üçün İrəvana gedəcək. Qeyd edək ki, bir neçə gün əvvəl Ağoğlan (Hadrut) istiqamətində təxribata cəhd edən 100-dən çox erməni terrorçusu sağ ələ keçirilib.

**Aysel Məmmədova**

---

# Qarabağda erməni əsgər ölüb



Qarabağda erməni hərbi qulluqçu Vaqe Babayan naməlum şəraitdə aldığı ağır xəsarətdən ölüb. Report xəbər verir ki, bu barədə məlumatı "Sputnik Armeniya" yayıb. Onun 18 yaşı varmış. Faktla bağlı araşdırma aparılır.

# TƏBİB-ə xitab: Biz yaşayacağımıza ümid edirik, ümid isə sonda ölür!

### Yaxud, aptek və xəstəxanalarda nə baş verir?

Demək olar ki, günaşırı şəkildə vətəndaşlara tövsiyələr, məsləhətlər verən, müxtəlif - yumşaq, yaxud sərt karantin rejiminə xas olan qaydaların tətbiq edilməsi istiqamətində brifinqlər keçirib, bununla da işini bitmiş hesab edən TƏBİB ətrafında təəssüfdoğurucu müzakirələr davam etməkdədir. Hələ COVİD-19 yeni-yeni Azərbaycana "təşrif" gətirərkən, dövlət ən ali səviyyədə önləyici tədbirləri həyata keçirdi, üstəlik, sosial məsələlərdə bir sıra ictimai qurumlar, könüllülər hərəkatı, habelə xeyriyyəçilər "Biz birlikdə güclüyük" şüarı altında dövlətin apardığı operativ tədbirlərə öz dəstəklərini göstərdilər. Söz yox ki, təqdirəlayiq işlər öz bəhrəsini verdi və inanırıq ki, koronavirusun yaratdığı çətin vəziyyət davam etdiyi bir zamanda həmin tədbirlər öz davamlılığını qoruyub-saxlayacaq.

Ötən müddət ərzində istər əsaslı xəstəxanalar, istər modul tipli xəstəxanalar, istərsə də fəaliyyət göstərən özəl klinikalar və əzmkar həkim heyətləri xalqın xidmətində dayandılar və bunun üçün Azərbaycan dövləti və rəhbərliyi bütün imkanları yaratdı. Nə qədər həkimlərimiz virusla mübarizədə həyatlarını qurban verdilər!

O da əbəs deyil ki, koronavirusa yoluxanların sayı ikirəqəmlidən üçrəqəmliyə keçərkən növbəti həyəcan siqnalı çalındı və öldürücü yoluxmanın qarşısının alınması üçün daha ciddi tədbirlərə əl atıldı. Əlbəttə, bütün bunlar əhalinin, xalqın sağlamlığının mühafizəsi üçün vacib addımlar idi və belə addımların müsbət nəticələrə doğru istiqamət alacağına hər kəsdə ümid var idi.

### İndi daha ağrılı fazadayıq - dördrəqəmli səviyyəsində...

Bəli, bir sıra məsuliyyətsiz insanlarımız da tapıldı və tapılır ki,



epidemiyaya məhəl qoymayaraq nə özlərini, nə də ətraflarını düşünmədən yoluxmaların sayının artmasına rəvac oldular. Nə tətbiq edilən cərimələr, nə də digər götürülən sərt ölçülər təəssüf ki, istənilən nəticələrə gətirib-çıxarmır. Demək olar ki, hər gün koronaviruslu xəstələrin icazələri olmadan küçəyə çıxıb, alış-veriş etmələrinin, sonradan isə hüquq-mühafizə orqanları tərəfindən saxlanılaraq geriyə göndərilmələrinin və ya barələrində cinayət işi açdıqlarının şahidləri olmaqdayıq. Etiraf edək ki, bu yöndə də tənzimlənmələrə ehtiyac var və bu cür halların qarşısı alınmazsa, daha ağır fəsadları xalq olaraq üzərimizdə hiss etməyə məhkum olacağıq. Biz hələ ictimai nəqliyyatdakı sıxlıqları, sərnişinləri daşıyan avrobusların intervallarının çox olmasını, insanların az qala bir-birinin üzərində - "basabas" deyilən vəziyyətdə mənzil başına getmələrini, bu cür yaranan digər təhlükəli məqamları demirik...

Amma bir daha geri dönək TƏBİB-in fəaliyyətinə və araşdırmamızı apararaq nəyin-necə olduğunu müəyyən edək. Əgər TƏBİB bütün detalları tam anlamınadək müəyyən edirsə, məsləhətlər, tövsiyələr verirsə, belə məsələləri də diqqətə almalıdır, bu, onun borcudur. Yox, öhdəsindən gələ bilmirsə, bu da həmin qurumun öz problemidir və problemdən çıxış yollarını axtarıb-aramalıdır.

### Bizlər - media nümayəndələri istər yoxlanılmış, istərsə də yoxlanılmamış informasiyaları ictimaiyyətin, habelə müvafiq strukturların diqqətinə çatdırmalıyıq

Beləliklə, birfinqlər keçirib yeni-yeni qaydalar tətbiq edən TƏBİB nədənsə öz fəaliyyəti ilə yanaşı, hazırda nəzarətində olan xəstəxanalarda, apteklərdə, həmçinin təcili tibbi yardım sahəsində baş verənləri ya görmür, ya da görməzlikdən gəlir. Bu arada həmkarımız Elçin Alıoğlunun teleqram səhifəsindəki bəzi faktları diqqətə çatdırmağı özümə borc bildim. Çünki bizlər - media nümayəndələri istər yoxlanılmış, istərsə də yoxlanılmamış informasiyaları ictimaiyyətin, habelə müvafiq strukturların diqqətinə çatdırmalıyıq. Yoxlanılanlar öz yerində, mətbuatda gedən və ictimailəşdirilən yoxlanılmayan məlumatları isə, məhz müvafiq orqanlar araşdırmalı, qanun pozuntuları olarsa, ona hüquqi qiymət verməlidirlər.

Beləliklə, aldığımız məlumatlara görə:

* Apteklərdə "antivirial" preparatı tərkibi eyni olsa da, qiyməti 15 manatla 2 min manat arasında dəyişir.

* Xəstəxanalarda çarpayı yerləri satılır. Koronavirus xəstəsinin Bakıdakı "elitar" xəstəxanalara düşməsi müşkül məsələyə çevrilib. Xəstənin və ya xəstə sahiblərinin niyyətləri qətidirsə, 2 min manatla 5 min arasındakı fərqlə rüşvət verməyə hazır olmalıdır.

* Həmin xəstəxanalarda pasiyentlər üçün ayrılmış dərmanların da bir qismi çıxarılır, satılır.

* "Kleksan", antiqoaqulyantlar, "Acetaminophen", "İbuprofen", "Naproxen", "Favipiravir", "Arbidol", "Azitromitsin", "Hidroksixloroxin", "Qrippferon", "İnqavirin", "Qalavit", "Avifavir", "Koronavir", "Remdesivir", "Lopinavir", "Deksametazon" - apteklərdə əvvəlki dönəmlərlə müqayisədə dəfələrlə baha qiymətə satışdadır, qiymətlər süni şəkildə bahalaşdırılıb.

Daha təəssüfdoğurucu iddialar isə bunlardır:

* İş o yerə çatıb ki, xəstələrə veriləcək 1 doza preparat 3 yerə bölünür, 3 pasiyentə verilir. Təbii ki, belə olan halda onların effektiv müalicəsindən söhbət belə, gedə bilməz.

* Koronavirus xəstəsi evə təcili yardım çağırırsa, günlərlə gözləməli olur. Gözləmək istəmirsə, rüşvət verməlidir: bununla bağlı hər gün şikayətlər alıram (Elçin Alıoğlu telegram səhifəsində qeyd edib)

* Və ən nəhayət, xəstəxanalarda müalicəyə rezidentlər cəlb olunub. Onların da bilik, bacarıq və peşəkarlıq səviyyəsi təbii ki, aşağıdır. Həmin rezidentlər maaş da almırlar.

* Pasiyentlərə indivilual yanaşma isə bir sıra hallarda illüziya olaraq qalır. Təsəvvür edin: 100 pasiyentlik bir şöbə və orada vur-tut 1 həkim, 50 rezident...

Görünən budur ki, COVİD-19 koronavirusu səhiyyə sistemindəki korrupsionerlər üçün əməlli gəlir mənbəyidir. Vətəndaşı suçlamaq, brifinq keçirərək xalqa moizələr oxumaq asandır. Hətta çox asandır. Bəs yaxşı, nə üçün, nədən indiyədək Səhiyyə Nazirliyində, TƏBİB-də bir rüşvətxor, korrupsioner cəzalandırılmayıb, bir cinayət işinə başlanmayıb? Yəni yoxdur korrupsiya bu qurumlarda? Belə iddia həddən ziyadə primitiv nağıldır, cənablar...", deyə məlumatda qeyd olunur.

Əslində, bütün bu kimi iddiaların, məlumatların ortaya çıxması, sözün əsl mənasında, havadan yaranmayıb və atalar demişkən, "od olmasa tüstü çıxmaz". Demək, dövlət ən ali səviyyədə bütün imkanları yaradır, koronavirusla mübarizə sistemində əlində olan hər bir vasitəni xalqın xidmətinə verir, TƏBİB, yaxud ona bağlı qurumlar baş verən bu olaylardan xəbərsiz qalır?! İnandırıcı deyil. Ona görə də, yaxşı olardı ki, çoxsaylı məsləhətlər verib, bəzi məsuliyyətsiz virus daşıyıcılarının gözünə bütün vətəndaşları günahkar kimi qatmaqdansa, mövcud problemlərin haradan, niyə və necə qaynaqlandığını izah etsinlər. Bu, daha yaxşı olardı.

**Rövşən RƏSULOV**

***P.S.** Elə bir insan yoxdur ki, çevrəsindən bir neçə yaxınını, tanış-bilişini lənətə gəlmiş koronavirus səbəbindən itirməsin. Elə götürək infeksiya səbəbi ilə həyatlarını itirmiş jurnalist həmkarlarımızı. Onların bir çoxu müxtəlif bəlli və ya bəlli olmayan səbəblərdən ya əsaslı testlərdən keçə bilməyiblər, ya da bax, bu cür qanunsuzluqların, özbaşınalıqların qurbanlarına çevriliblər. Biz isə daha itirmək istəmirik, biz yaşamaq, yaratmaq və gələcəyimizin qurulmasında iştirakçılıq fəaliyyətimizi davam etdirmək istəyirik. Yəqin ki, TƏBİB bunu da nəzərə alacaq, ümid edirik, çünki ümid də sonda ölür...*

## Hande Harmancı: Qarşıdakı 3 ay koronavirusla bağlı vəziyyət çox çətin olacaq

***Qarşıdakı 3 ay koronavirusla bağlı vəziyyət çox çətin olacaq. SİA-nın məlumatına görə, bunu ÜST-nin Səhiyyə ilə bağlı Ehtiyacların Qiymətləndirilməsi Missiyasının yekunlarına dair media brifinqdə ÜST-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Hande Harmancı deyib.***

Onun sözlərinə görə, artıq bir ilə yaxındır ki, koronavirus insanların həyatına daxil olub və yeni normalar müəyyənləşib: "Son bir ildə hər kəsin həyatı çox dəyişdi. Bu, bir yandan pandemiya yorğunluğunu ortaya çıxardı. Peyvənd vurulana qədər yeni normallarla yaşamalıyıq və ona əməl etməliyik. Yeni normaları bir-birimizə pozitiv şəkildə ötürməliyik". H.Harmancı əlavə edib ki, Azərbaycanda artıq küçə-




lərdə insanlar pandemiya qaydalarına daha çox riayət edirlər. Bu, çox gözəl haldır.

## Ermənistanda ölüm sayı 2556 nəfərə çatıb



Ermənistanda son sutka ərzində 1098 nəfərə COVID-19 diaqnozu qoyulub. SİA xəbər verir ki, bununla da infeksiya daşıyıcılarının sayı 150 min 218-ə yüksəlib. Milli Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzinin məlumatına görə, ölənlərin sayı 27 nəfər artaraq 2556-ya çatıb. Hazırda Ermənistanda 18 min 331 aktiv koronavirus xəstəsi var.

# Ermənilərin nəsibinə cəhənnəmin qır qazanı düşüb



***Sanki atəşkəsdən sonra kabus bitəcəkmiş, amma Ermənistan üçün atəşkəs yeni bir kabusu ortaya çıxardı. Ermənistan cəmiyyəti çaxnaşmalar, kataklizmlərlə üz-üzə qalıb və işğalçı ölkə vətəndaş müharibəsi astanasındadır. Məğlubiyyətini həzm edə bilməyən erməni cəmiyyəti günah keçisi axtarışındadır və indi hər bir erməni səs-küy salmağa, qarışıqlığa meyillidir və itaətsizlik barədə etirazçıların bəyanatı da əbəs yerə deyil.***

Azərbaycan, eləcə də qardaş ölkə olan Türkiyə sevinc içərisindədir. Bir aydan çoxdur ki, biz zəfər, qələbə əhval-ruhiyyəsində olduğumuz halda Ermənistan cəhənnəmə, bu ölkənin küçə və meydanları isə "qır qazanına" çevrilib. "İrates" qəzetinin timsalında bu işğalçı ölkənin mətbuat orqanları eyni ilə sadalananlarla eyni fikirdədir və bu düşmən mediasında açıq-aşkar duyulur. İşğalçı ölkənin mediası açıq-aşkar yazır ki, Ermənistan bir ölkə kimi ancaq çaxnaşmalar içərisindədir. Bu ölkənin siyasi sisteminin çökməsi qənaətində olanlar gündən-günə artır və məhz işğalçı ölkənin mətbuatında bu qənaətdə olanların açıqlaması vaxtaşırı, ardıcıl olaraq yayımlanır.

Digər tərəfdən erməni cəmiyyəti son zamanlar istefa dalğası ilə rastlaşmalı olub. Hətta hakim, "Mənim addımım" partiyasından olan deputatlar belə partiyanı tərk edir, bir çox siyasətçilər mandatından belə imtina edir. Bəzi inzibati rayonların polis rəisləri belə vəzifəsindən imtina edib xalqa, idarəedilməz kütləyə qoşulduğunu elan edir və bu artıq ondan xəbər verir ki, güc strukturları, polis belə ən yaxın zamanda Ermənistan hakimiyyətinin yanında olmayacaq, əksinə etirazçılarla olacaq və bu da daha böyük toqquşmalardan, daha gərgin vəziyyəti proqnozlaşdırır.

10 dekabr tarixində Azərbaycan Zəfər Paradı keçirdi və öz hərbi texnikası, silah-sursatı ilə yanaşı, Ermənistan tərəfinin qoyub qaçdığı, Azərbaycan Ordusunun isə qənimət olaraq ələ keçirdiyi texnikaları nümayiş etdirdi. Hələ ölkəmizin arsenalında nələrin olduğunu, hansı zəngin bazaya malik olduğumuzu görən düşmənin qıcıqlanması başadüşüləndir. Başadüşüləndir ki, ölkəmizdə keçirilən bu son paradın ardınca Ermənistan cəmiyyəti niyə daha aqressiv olub. Əslində, məğlubiyyətləri fonunda, bu qədər rəzalətləri fonunda işğalçı ölkə ictimaiyyəti ideologiyalarının, iddialarının puç olduğunun fərqində olmalı, xəstə təxəyyüllərinin onlara ancaq bəlalar gətirdiyini anlamalı idi. Bu cəmiyyət anlamalı idi ki, əsrlər boyu aldadılaraq qırğınlara sürüklənən, yalnız işğalla məşğul edilərək itgilər verən toplum olaraq aqibətləri məhz bu şəkildə olmalıdır və onların nəsibinə yalnız cəhənnəmdəki qır qazanında yanmaq düşər. Anlamalı idi ki, bu xəstə təxəyyüldən, bu axmaq, yalançı, şişirdilmiş ideallardan əl çəkərək dünyaya normal, sağlam gözlə baxsalar daha məqsədəuyğun olar və nə zamansa ermənilər də normal insanlar kimi, indikindən fərqli olaraq sağlam insanlar kimi yaşaya bilərlər və bu onlara dəfələrlə təklif olunub da.

Kabus həqiqətən də bu gün Ermənistanı bürüyüb və məğlubiyyətlərinin tarixi ədalət olduğunu, bunun qaçılmaz olduğunu anlamaq istəməyənlər ölkəni daha acınacaqlı vəziyyətə sürükləyir. İşğal etdikləri ərazilərin, eləcə də onlara aid olmayan bu ərazilər uğrunda mənasız yerə insan itgisinin geri qaytarılmaz olduğunu anlamadıqca, Ermənistan daha çətin duruma sürüklənir. Bəli, küçələrində səs-küy, itaətsizlik müşahidə edilən bu ölkə cəhənnəmi xatırladır. Baş nazirini yumurta atəşinə tutan vətəndaşlar bundan sonra daha acınacaqlı vəziyyət yaradacaqlarını anlamaq istəmirlər.

Məsələ burasındadır ki, bu zamana qədər yalnız itgilər verən ölkənin qarşısında həlli vacib məsələlər həddindən artıq çoxdur. Ən aktual məsələlərdən sayılan məhbus mübadiləsi, cəsədlərin qaytarılması, yaralıların sağaldılması kimi problemlər göz qabağındadır və təcili məsələlərdir, amma göründüyü kimi bununla məşğul olan yoxdur. Vəziyyət o qədər müəmmalıdır ki, ölkə vətəndaşları, ələlxüsus övladı müharibədə itgin düşən valideyinlər öz ölkələri, öz hakimiyyətləri, hakimiyyət başçıları ola-ola Rusiyadan, bu ölkə prezidentindən kömək istəyir, kömək umur.

Bu işğalçı ölkədə həyatı vacib məsələlər saydıqca birməz, amma bu məsələlərə də sanki, ya əhəmiyyət verən yoxdur, ya da anlaşılan deyil. Ermənistan xırtdəyə qədərdir bataqlıq içərisindədir və batır desək belə yanılmarıq. Bir dövlət olaraq, hökumət olaraq qarşılarında çox vacib həyati bir məsələ var, sərhədlər problemi var ki, bu, günün reallığıdır. Bu ərəfədə, yeni müharibədən sonra tərəflər sərhədlərin müəyyənləşdirilməsi və bununla əlaqədar müvafiq işlərlə məşğul olmalıdır. Amma görünür Ermənistanda bu məsələ ilə məşğul ola biləcək bir ya bir hökumət yoxdur, ya da bunun fərqində olacaq cəmiyyət. Elə zənn edirlər ki, bunu da onlar üçün ruslar edəcək və bir növ öyrəncəli olublar. Amma vəziyyət heç də ötən əsrlərdəki, ötən əsrin əvvəlindəki və sonundakı kimi deyil. Bütün məsuliyyət Ermənistanın öz üzərinə düşür və reallıq budur ki, bununla məşğul olmaq məcburiyyəti yaranıb.

İş ondadır ki, prezidentdən başqa Ermənistanın qanuni bir hökuməti də yoxdur. 10 noyabr tarixində Nikol Paşinyan legitimlik tarixini bir imza ilə sildi. Üstəlik, 88 millət vəkilinin əksəriyyətini siyasi sahədən belə qovdu. Vəziyyətin özəlliyi ondadır ki, müvəqqəti hökumət belə indi qurulsa, hətta milli bir konsensusla qanuni ola bilməz. Çünki, bu hökumət seçkiləri parlament modelinə görə keçirir. Ermənistan ictimaiyyəti prezidentdən başqa heç bir siyasi qüvvənin, heç bir rəsmi şəxsin qanuni sayıla bilməyəcəyi bir dövrdədir. Məhz ona görə də erməni xalqı üçün Nikol Paşinyanla, onun komandası ilə danışıq aparmağın mənası da qalmayıb.

Mənasız bir şəraitdə, xaosun hökm sürdüyü mühitdə, qarışıqlıq şəraitində ciddi toqquşmalar önə çıxıb. Belə olan halda heç bir perspektivdən söhbət gedə bilməz. Təbii ki, Ermənistan hakimiyyət zəifdir. Heç bu ölkənin müxalifəti də vəziyyəti dəyişdirəcək gücdə deyil. Vəziyyətin bu və ya digər tərəfə çevrilməsi baxımından Ermənistan vətəndaşları özləri də hələ bir qənaətə gələ bilmirlər. Küçələrə çıxanlar sadəcə ehtiraslarının, aqressiyalarının diqtəsi ilə meydanlardadırlar və nə olur-olsun, kim olur-olsun məğlubiyyətin günahkarını axtarır, ondan intiqam almağa çalışırlar. Məhz bu intiqam, nifrət hissi, bu aqressivlik işğalçı ölkəni etirazlar cəhənnəminə çevirib.

***İnam Hacıyev***

# Araik Nikolun üstünə getdi: proseslər bizim tərəfimizdədirmi?

*Marionet "prezident" Paşinyana ünvanlanır: "Heç kimə sirr deyil ki, "müdafiə ordusu" (dırnaqlar bizimdir) faktiki olaraq necə və haradan idarə olunur"*




ANALİTİK

Hazırda dövlətçilik dayaqlarını itirməkdə olan Ermənistanın marioneti, əlaltısı olaraq 30 il işğal altındakı torpaqlarımızda qanunsuzluqlar və cinayətlər törədən, on minlərlə azərbaycanlının doğma yurd-yuvalarından məhrum olunmasında, minlərlə soydaşımızın qətlə yetirilməsində rol alan və artıq mövcudluğunu itirən qondarma "dqr"in sonuncu "prezidenti" Araik Arutunyan bir müddət ortalıqda görünməsə də, yenidən peyda olub və bu dəfə növbəti "imicdə". Bunun isə səbəbi açıqdır - özünü təmizə çıxarmaq və məsuliyyətdən boyun qaçırmaq üçün. Daha dəqiq desək, Araik Arutunyan yalnız erməni xalqının qarşısında deyil, həm də azərbaycanlıların qarşısında sələfləri kimi cinayət məsuliyyəti daşıyır və əbəs deyil ki, Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən axtarışa verilib. Düzdür, onun axtarışda olmasına rəğmən, nədənsə Rusiya telekanallarında tanınmayan respublikanın "prezidenti" kimi təqdim edilməsi, eləcə də Rusiya sülhməramlılarının kontingent rəhbəri ilə görüşlər keçirməsi başqa mövzudur və bu barədə daha əvvəl də yazmışdıq, sonra da yazmağa davam edəcəyik.

Araik indi də İrəvana qarşı hücuma keçir və hədəfinin Paşinyan olması da isbat edir ki, o və ondan əvvəlki oyuncaq "prezidentlər" və saxta "dqr" 30 il marionetlər rolunu oynayıblar

Lakin indiki məqamda mövzu başqadır və daha dəqiq desək, Araik Arutunyanın Ermənistanın baş naziri Nikol Paşinyanın üzərindən özünə "xilas xalı" toplamaq cəhdləridir.

Araik indi də İrəvana qarşı hücuma keçir və hədəfinin Paşinyan olması da isbat edir ki, o və ondan əvvəlki oyuncaq "prezidentlər" və saxta "dqr" 30 il marionetlər rolunu oynayıblar. Məsələn, Araik Arutunyanın "Məgər mən Qarabağın ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək üçün kifayət qədər imkanlara malik idimmi? Heç kimə sirr deyil ki, "müdafiə ordusu" (dırnaqlar bizimdir) faktiki olaraq necə və haradan idarə olunur, hansı ki, "artsax respublikasının prezidenti" bu proseslərə cəlb edilib. Mən "konstitusiya səlahiyyətləri" və real həyatın sərt funksional məhdudiyyətləri arasında olan nəhəng fərqlə mümkün olan hər şeyi etdim", fikrini irəli sürülməsi də artıq deyilənləri təsdiqləmiş olur.

Beləliklə, vəziyyət tamamilə aydındır və bu gün azərbaycanlıların və bizim yanımızda olan dost və qardaşların marağında olan daha bir məsələnin gec, ya da tez bir zamanda həlli prosesi - yeni bizlərin istədiyi kimi nəticələnəcək proses davam edir...

***Rövşən RƏSULOV***

# Praqada ermənilərin təxribatının qarşısı alınıb




***Praqa şəhərində yaşayan azərbaycanlı icması tərəfindən ermənilərin növbəti təxribatının qarşısı alınıb. SİA-nın xəbərinə görə, Çex Respublikasının paytaxtındakı Con Lennon Divarına ermənilər Azərbaycan, Türkiyə və İsrail ordularının dayandırılmasına və Dağlıq Qarabağın müstəqil dövlət kimi tanınmasına çağırış edən əsassız şüarlar yapışdırıblar.***

Məsələyə çevik reaksiya verən diaspor fəallarımız şüarların yazıldığı kağızları qoparaqaq həqiqəti əks etdirməyən yazıların Lennon Divarına ləkə salmasına yol verməyiblər. Qeyd edək ki, "Beatles" qrupunun əfsanəvi üzvü Con Lennonun şərəfinə yaradılmış divar Praqada turistlərin ziyarət etdikləri yerlər sırasına daxildir. Qraffiti və şeirlərin əks olunduğu bu divar sülh və sevginin təcəssümünə çevrilib.

***Gülyana***

# Ermənistan rəhbərliyi bu günə kimi öz xalqını aldadır

***Müharibə başlayan gündən ölkə rəhbərinin şəxsən bütün məsələlərə rəhbərlik etməsi, istər televiziya, istərsə də sosial şəbəkə üzərindən xalqla ünsiyyət qurması, yaralanan əsgərlərlə görüşməsi dövlətlə cəmiyyətin həmrəyliyinin bariz göstəricisidir. Bunu Trend-ə açıqlamasında hərbi ekspert Ruslan İmanquliyev deyib.***




Onun sözlərinə görə, 44 günlük müharibə dövründə ölkə rəhbərliyi və aidiyyatı strukturlar xalqa proseslər haqqında reallığı çatdırdılar. Müharibədə iştirak edən harbçilər təltif edildi və edilməkdə davam edir: “Azərbaycandan fərqli olaraq biz Ermənistanda tam əksini görürük. Erməni rəhbərliyi bu günə kimi öz xalqını aldadır, saxta məlumatlar ötürür, ölən hərbçilərin sayını gizlədir. Ermənistan dövlətinin öz xalqına yalan xəbərlər ötürməsi səbəbindən bu gün orada etiraz dalğaları davam edir və günü-gündən də aksiyalar genişlənməkdədir”.

Hərbi ekspert qeyd edib ki, birinci Qarabağ müharibəsində ermənilər azərbaycanlılara Kəlbəcərdən çıxmaq üçün cəmi 10 saat vermişdilər, bunun da ilk 5 saatı insanlara dinc şəkildə oranı tərk etməyə imkan yaradıldı. Daha sonra isə Azərbaycan xalqına qarşı vəhşilik, güc tətbiq etdilər:

“Bunlara baxmayaraq Azərbaycan Vətən müharibəsində Ermənistanın kapitulyasiyası zamanı heç bir beynəlxalq normaya zidd davranışlar göstərmədi. Hətta rayonların təhvil verilməsi zamanı qrafikdə də onlara imtiyazla yanaşdıq. Kəlbəcərin boşaldılması, noyabr ayının 15-dən 25-ə kimi uzadıldı. Ermənilər isə bütün bunlara baxmayaraq Kəlbəcəri və digər ərazilərimizi tərk edən zaman evləri yandırdı, ağacları kəsdi və əraziləri minaladılar. Bu onu göstərir ki, onlar hələ də öz pis niyyətlərindən əl çəkməyiblər”.

R.İmanquliyev əlavə edib ki, son günlər Xocavənd ətrafında gedən döyüşlər və orada qalan erməni silahlıları hərbçilərimiz tərəfindən zərərsizləşdirilib. Ordakı ermənilər guya meşəlik ərazidə qalan bəzi erməni silahlılarıdır, ancaq onları zərərsizləşdirdikdən sonra görürük ki, onlar heç də hansısa qruplaşmalar deyil, məhz elə Ermənistan ordusuna məxsus qüvvələrdir: “Təbii ki, istər ayrı-ayrı silahlı qruplaşma, istərsə də erməni hərbçiləri olsun, onların heç biri bizim əsgər, zabitlərimiz qarşısında tab gətirə bilməz. Bəli, bizlərdən şəhid olan oldu, ancaq hərbçilərimiz qısa bir müddətdə o ərazilərdə də kifayət qədər düşmən qüvvəsini məhv etdi.

Bu əməliyyatlar yenidən müharibəni alovlandırmaq üçün deyil. Lazım gəlsəydi Azərbaycan öz ərazisini işğaldan azad etdikdən sonra, hərbi əməliyyatları düşmən ərazisinə keçirərdi və buna imkanı da var idi, amma belə bir niyyəti olmadı. Bunların hamısı sülhü qorumaq və möhkəmləndirmək fazası üzrə keçirilən antiterror əməliyyatlarıdır. Bu əməliyyatlar da o bölgələr tam təhlükəsiz vəziyyətə gəlib çıxanadək davam edəcək. Çünki bizim mülki vətəndaşlarımız orada birmənalı şəkildə rahat və təhlükəsiz vəziyyətdə yaşamalıdırlar”.

# Kiberhücumların sayı iki dəfədən çox artıb

Azərbaycanda uzaqdan giriş protokolu üzərindən edilən hücumların sayı iki dəfədən çox artıb. “Kaspersky” şirkətindən SİA-ya bildirilib ki, 2020-ci ildə şirkət uzaqdan işləməyin təşkili üçün nəzərdə tutulan RDP (Remote Desktop Protocol) protokolu üzərindən edilən hücumlarda əhəmiyyətli bir artım olduğunu qeyd edib. Şirkətin “Uzaqdan iş - ilin hekayəsi” hesabatına görə, yanvar-noyabr ayları arasında Azərbaycanda 2,2 milyon belə hücum qeydə alınıb. Bu, 2019-cu ilin eyni dövrü ilə müqayisədə 2,6 dəfə çoxdur.

Mütəxəssislər bunu işçilərin məsafədən iş rejiminə kütləvi keçidi ilə izah edirlər: RDP üzərindən qoşulmaların sayı artıb ki, bundan da təcavüzkarlar istifadə edib. Fevral ayında, yəni sərt karantin tətbiq edilməzdən əvvəl RDP üzərindən edilən hücumların sayı 167 min, mart ayında məhdudlaşdırıcı tədbirlərin gücləndirilməsi ilə 283 min idi. Noyabr ayında isə bu rəqəm təxminən 200 minə bərabər olub. Bir qayda olaraq, RDP hücumu



zamanı kibercinayətkarlar avtomatlaşdırılmış alətlərdən, eyni zamanda, geniş yayılmış və təhlükəyə açıq şifrələrdən ibarət məlumat bazalarından istifadə edərək istifadəçi adını və şifrəni ələ keçirməyə çalışırlar. Uğurlu olduqda hücumun hədəf aldığı kompüterə uzaqdan giriş əldə edilir.

# Maska taxmayanları yüksək cərimə gözləyir



Azərbaycanda maska taxmamağa görə cərimələr artırılır. SİA-nın məlumatına görə, bununla bağlı məsələ Milli Məclisin dekabrın 18-də keçiriləcək iclasında müzakirə ediləcək İnzibati Xətalar Məcəlləsinə dəyişiklikdə öz əksini tapıb.

Dəyişikliyə əsasən, epidemiya əleyhinə rejim, sanitariya-gigiyena və karantin rejimləri dövründə fərdi qoruyucu vasitələrdən istifadə ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən tələblərin pozulmasına, habelə vəzifəli şəxslər və hüquqi şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmamasına görə fiziki şəxslər 100 manat məbləğində, vəzifəli şəxslər 300 manat məbləğində, hüquqi şəxslər 600 manat məbləğində cərimə ediləcək. Hazırda isə fiziki şəxslər 100 manat, vəzifəli şəxslər 200 manat, hüquqi şəxslər 400 manat məbləğində cərimə edilir.

# Məşhur Məmmədov: “Minsk qrupu üzərinə götürdüyü vəzifənin öhdəsindən gələ bilmədi”



***“Təəssüflər olsun ki, Minsk qrupu münaqişənin həllində heç bir rol oynamayıb. Halbuki bunu etmək üçün Minsk Qrupu 28 il ərzində müvafiq mandata sahib idi”. Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 12-də ATƏT-in Minsk Qrupunun Fransadan və ABŞ-dan olan həmsədrləri ilə görüşdə bildirib. Bu, çox sərt olmaqla, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı vasitəçilik missiyasını öz üzərinə götürmüş ATƏT-in Minsk Qrupuna bir sillə idi. 28 il ərzində heç nə ilə yadda qalmayan Minsk qrupunun həmsədrlərinin vaxtaşırı olaraq regiona səfərlərinin heç bir səmərəsi olmadığını, hər zaman işğalçı Ermənistanın təcavüzkar siyasətinə, onun beynəlxalq hüququ kobud surətdə pozmasına, hərbi cinayətlərinə göz yumduğunu təsdiqləyən sözlər idi”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Məşhur Məmmədov deyib.***

M.Məmmədov,həmçinin kabrın 12-də Azərbaycan Prezidenti İlham Əliyev həmsədrlərlə görüşündə reallıqları qarşı tərəfin diqqətinə çatdırıb. Bildirib ki, ATƏT-in Minsk qrupu həmsədrlərinin sonuncu dəfə Azərbaycana səfərindən ötən bir il ərzində bölgədə vəziyyət artıq tamamilə fərqlidir: “Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin artıq mövcud olmaması regionda vəziyyəti dəyişdirib. Azərbaycan 30 ilə yaxın davam edən münaqişəni həll etdi, buna güc yolu və siyasi vasitələrlə nail oldu”,-deyən dövlət başçımız çıxışı zamanı bildirib: “Mən həmsədr dövlətlərin başçılarından olan Prezident Putinin dedikləri ilə razılaşıram ki, Dağlıq Qarabağ münaqişəsi artıq tarixə qovuşub. Mən də həmin fikirdəyəm. Təəssüflər olsun ki, Minsk qrupu münaqişənin həllində heç bir rol oynamayıb. Halbuki bunu etmək üçün Minsk qrupu 28 il ərzində müvafiq mandata sahib idi. Mən son 17 il ərzində danışıqlarda iştirak etmişdim. Lakin müharibə zamanı dediyim kimi, Minsk qrupunun ideyalarla çıxış etmək və yaradıcı olmaq istiqamətində müəyyən fəaliyyəti olsa da, bunlar heç bir nəticə verməmişdir. Reallıq bundan ibarətdir”.

Millət vəkili, həmçinin vurğulayıb ki, bəli, Azərbaycan bu məsələni özü həll edib: “Dövlət başçımızın dediyi kimi; “Ermənistanı döyüş meydanında məğlub edərək işğalçını məğlubiyyətini etiraf etməyə və Ermənistanın kapitulyasiyası hesab etdiyimiz Bəyanatı imzalamağa məcbur etdik. Ermənistan iqtidarından başqa ölkənin bütün siyasi qüvvələri də bununla razıdır ki, bu, kapitulyasiyadır və onlar bunu alçaldıcı kapitulyasiya adlandırırlar. Bunun tam məsuliyyəti Paşinyanın diktatura rejiminin üzərinə düşür”.

“Belə olan halda onlar niyə lazımi addımları vaxtında atmadılar, işğalçı Ermənistanın çirkin niyyətlərinə bir söz demədilər? Bu gün Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi, Güclü Ordumuzun, igid əsgər və zabitlərimizin qanı ilə, xalqımızın birliyi ilə torpaqlarımızı azad etdikdən sonra bu gün hansı üzlə növbəti görüşə gəlməyin mənası nədir?. Dövlət başçımızın qeyd etdiyi kimi, Dağlıq Qarabağ münaqişəsi artıq yoxdur, bu münaqişəni Azərbaycan hərbi-siyasi yolla özü həll etmişdir. Bundan sonra masa arxasında gələcəklə bağlı müzakirələri yalnız qalib dövlətimizin mövqeyi şərtləndirə bilər”.

M.Məmmədovun dediyi kimi, bu torpaqların hər santimetrində, hər qarışında Azərbaycan əsgərinin qanı var: “Belə olan halda, bundan sonrakı mərhələdə mövcud tərkibdəki Minsk qrupunun missiyasına ehtiyac da qalmayıb. Bu gün əsas vəzifəmiz, necə ki, həmişə həmrəylik göstərən xalqımızın bu həmrəyliyi, birliyi daha da güclü etmək, dövlətimizin yanında olaraq, işğaldan azad olunmuş bölgələrdə quruculuq işlərinin həyata keçirilməsinə, doğma Qarabağımızda yenidən həyatın canlanmasına, insanlarımızın öz dədə-baba yurdlarına qayıtmasına nail olmaqdır, buna da tezliklə nail olacağıq. Çünki Azərbaycan Qarabağdır!”.

**RƏFİQƏ HÜSEYNOVA**

# Rusiya eksperti: Azərbaycan 30 illik milli faciəyə son qoydu



***Bakıda hərbi qələbə paradı. Bu, uğurun haqlı vizuallaşdırılmasıdırmı? Azərbaycan nəyi və kimə göstərdi? Ermənistanda daxili siyasi vəziyyət son dərəcə kəskin olaraq qalır. Müxalifət məğlubiyyət simvolu olan Paşinyanı yıxmağa çalışır. Niyə o hələ də müqavimət göstərir?***

Rusiyanın nüfuzlu hərbi eksperti, “Milli Müdafiə” jurnalının baş redaktoru İqor Korotçenko Pravda.Ru İnternet nəşrinin baş redaktoru İnna Novikovaya müsahibəsində son günlərin ən vacib və maraqlı hadisələri barədə danışıb. Müsahibəni təqdim edirik.

**- İqor, Bakıda Zəfər hərbi paradı keçirildi. Bu nə üçün lazım idi? Azərbaycanlıların mənəvi ruhunu yüksəltmək üçün? Deyəsən bu, onsuz da ən yaxşı vəziyyətdədir. Fransızları, erməniləri, başqalarını incitmək? Yoxsa gələcək üçün bir bəyannamədir? Nə fikirləşirsən?**

- Yəqin ki, nəhayət, bu müəyyən dərəcədə simvolizmdir və təsadüfi deyil. Əvvəldən elan olundu ki, Azərbaycan vətənpərvərlik müharibəsi aparır, ərazisini azad etmək üçün müharibə aparır. Artıq bunun içində müəyyən bir simvolika var idi.

30 il ərzində Azərbaycan ərazilərinin 20%-i Bakının yox, Ermənistanın nəzarətində idi. Nəticəsi Azərbaycanın ərazi bütövlüyünün bərpası olan bu 44 günlük müharibə, əlbəttə ki, Azərbaycan xalqı tərəfindən qələbə kimi qəbul olunur. Və həqiqətən də belədir.

### Keçmişdəki səhvləri düzəltmək

Beləliklə, bu hərbi paradla Azərbaycan bu ölkənin tarixində baş verən təxminən 30 illik milli faciəyə son qoyur.

1990-cı illərin əvvəllərində Ermənistanın qələbəsi mümkün oldu, çünki o dövrdə Azərbaycanda güclü dövlət gücü yox idi. Cəbhədəki uğursuzluqlarda və Azərbaycanın verdiyi ərazi itkilərində günahkar olan Azərbaycan Xalq Cəbhəsi hakimiyyətə gəldi.

### Qaliblərin zəfəri

Bu parad müasir Azərbaycan və ümumilikdə Cənubi Qafqaz üçün epoxa yaradan bir hadisədir.

Əlbətdə ki, İrəvandakı əhval-ruhiyyə tamamilə başqa cürdür. Ermənistan üçün və ermənilər üçün bu milli bir faciə və şokdur, çünki orada heç kim belə bir nəticə gözləmirdi.

Bir çoxları, hətta Rusiyada belə bir nəticə gözləmirdilər, çünki əvvəlki toqquşmalar ciddi bir şeylə bitməmişdi.

Budur bir zəfər, əsl hərbi qələbə. Əlbətdə ki, hadisə siyasi və semantik əhəmiyyətinə görə çox böyükdür. Azərbaycan qələbə çaldı!

Bu baxımdan, hərbi parad bütün bu az qala 30 illik qarşıdurmaya son qoyur. İndi hadisələrin necə inkişaf edəcəyini müşahidə edəcəyik.

**- Aydındır ki, indi Ermənistanda vəziyyət tamamilə fərqlidir. Bir sıra siyasətçilərin hədələrinə, kifayət qədər sərt açıqlamalarına baxmayaraq Paşinyan hələ də yerində qalır. Özü də sərt açıqlamalar verir, xalqı fərqli addımlar atmağa çağırır. Əhəmiyyətli sayda insan onu dəstəkləyir, baxmayaraq ki, belə bir məğlubiyyətdən sonra istefa verməli idi. Necə düşünürsünüz?**

- Bəli, Paşinyan məğlubiyyətin simvoludur. Bundan əlavə, Paşinyan Azərbaycanın şərtləri ilə üçtərəfli siyasi müqavilə imzaladı.

Paşinyanın hələ də hakimiyyətdə olmasının əsas amili, düşünürəm ki, ona qarşı çıxmayan erməni hərbçilərinin mövqeyidir.

### Paylaşılan məsuliyyət

Paşinyan deyir ki, erməni generalları, Ermənistan Müdafiə Nazirliyinin rəhbərləri döyüş əməliyyatlarını dayandırmasını təklif etməklə özləri bu müqaviləni imzalayıblar.

Bu səbəbdən cəbhədəki mövcud vəziyyətdən yalnız o cavabdeh deyil. Bu məsuliyyəti hərbi rəhbərlik bölüşür.

Düzdür, müdafiə naziri Tonoyan artıq vəzifəsindən azad edildi. Yeni bir müdafiə naziri gəldi, döyüş əməliyyatları zamanı Paşinyanın hərbi müşaviri idi. Ordunun və milli təhlükəsizlik xidmətinin sədaqəti Paşinyana müəyyən siyasi sabitlik verir.

Əlbəttə ki, Yerevanda bir neçə gün ərzində tam xaos hökm sürdü. İzdiham hökumət binasını və Paşinyanın iqamətgahını ələ keçirdi, poqromlar var idi. Paşinyan xaos və anarxiya günlərində Müdafiə Nazirliyinin binasının altındakı yeraltı bunkerdə gizləndi. Erməni hərbçiləri özləri Paşinyanı qoruyurdular.

### Kaş bunlar olmasın

Bu gün, buna baxmayaraq, müxtəlif təxminlərə görə, Ermənistan əhalisinin 54-58% -i Paşinyanı dəstəkləyir, çünki erməni xalqı əvvəlki siyasi rəhbərliyə iddialarla çıxış edib.

Paşinyan bir sıra böyük korrupsiya işləri açıb. Buna görə də insanlar, məğlubiyyətin acılarına baxmayaraq, onu dəstəkləyirlər, çünki keçmiş korrupsionerlərin erməni siyasi Olimp zirvələrinə qayıtmasını istəmirlər.

Digər bir vacib vəziyyət də Paşinyanın partiyadaşları tərəfindən dəstəklənməsi, Paşinyan fraksiyasının isə konstitusiya çoxluğuna sahib olmasıdır. Ermənistanda hakimiyyəti yalnız parlamentdə səs verməklə dəyişdirmək mümkündür.

### Paşinyan Putin tərəfindən saxlanıldı

Paşinyanın siyasi sabitliyi də təbii ki, gözlənilməz bir amildir. Ancaq daha bir şey var. Bu gün Ermənistan çoxvektorluğun artıq seçim məsələsi olmadığı bir vəziyyətdədir. Ya Rusiya ilə, ya da milli bir fəlakət.

Putin ictimaiyyət qarşısında Paşinyanı dəstəklədi və bildirdi ki, Paşinyanın cəsarətli, lakin çox sərt bir qərarı ilə müharibəni Ermənistanın əvvəllər əlində saxladığı ərazilər üzərində nəzarətdən imtina etmək şərti ilə dayandırmaq lazımdır.

Putin beləliklə Rusiyanın Paşinyanın dərhal istefasında israr etməyəcəyini açıq şəkildə bildirdi. Bu, müəyyən dərəcədə sabitliyin təməlini qoydu...

*(Davamı olacaq)*

***Tərcümə: Elçin Bayramlı***

# “Minsk qrupu təcavüzkarın adını indiyə kimi çəkməyib”

“ATƏT-in Minsk qrupu ötən 28 il ərzində münaqişənin həllində heç bir rol oynamadı. Əslində, vasitəçilik problemi həll etməyə yönəlmiş fəaliyyətdir. Beynəlxalq hüquqda problemin həlli üçün hamı tərəfindən qəbul olunmuş konkret normalar var. Bu, ilk növbədə hər bir ölkənin tanınmış sərhədləri çərçivəsində suverenliyinin bərpası məsələsidir. İkincisi, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən və ermənilərin Azərbaycan torpaqlarını işğal etməsi faktının qeyd olunduğu digər başlıca sənədlər BMT TŞ-nin qəbul etdiyi 4 qətnamədir. Vasitəçilər isə “siz nəyə razılaşsanız, biz onu qəbul edəcəyik” fəlsəfi kimi neytral, yaxud laqeyd mövqe nümayiş etdirirdilər. Vasitəçilik missiyası və vəzifəsi özündə BMT TŞ-nin 4 qətnaməsinin tələblərinin yerinə yetirilməsini ehtiva etməli idi”. Bunu SİA-ya millət vəkili Anar Məmmədov deyib.




Deputatın sözlərinə görə, təəssüf ki, biz həmsədrlərin fəaliyyətində bunu görmədik: “Hələ bu günədək biz bir dəfə də rast gəlmədik ki, Minsk qrupunun həmsədri olan ölkələr tələb etsinlər ki, bu problemin həlli yolu BMT TŞ-nin qəbul etdiyi qətnamələrdən keçir və heç olmasa Ermənistanı çağırırıq ki, bu qətnamələrin tələblərini yerinə yetirsin. Bu günə qədər hərbi təcavüzün ortada olmasına, torpaqlarımızın bir hissəsinin işğal olunmasına, 1 milyon insanın öz vətənində məcburi köçkün vəziyyətinə düşməsinə baxmayaraq, Minsk qrupu təcavüzkarın adını indiyə kimi çəkməmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin dekabrın 12-də ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul edərkən bildirdi ki, Minsk qrupunun ideyalarla çıxış etmək və yaradıcı olmaq istiqamətində müəyyən fəaliyyəti olsa da, bunlar heç bir nəticə verməmişdir. Reallıq bundan ibarətdir. Əgər həqiqətən də onlar problemin sülh yolu ilə həllinin tərəfdarı olsaydılar o zaman bitərəf mövqe sərgiləyərdilər. Zaman göstərdi ki, onların fəaliyyəti bəzi Avropa ölkələri, təşkilatları kimi ikili standartlara söykənib. Onların səriştəsiz fəaliyyəti nəticəsində torpaqlarımız illərdir ki, işğal altında qaldı. Artıq məlum olduğu kimi onlar, sadəcə, mövcud vəziyyəti olduğu kimi saxlamaq istəyirdilər. Bunun əksinə olaraq isə Azərbaycan dövləti hərbi-siyasi yolla öz torpaqlarını işğaldan azad etdi, Ermənistanı döyüş meydanında məğlub edərək, işğalçını məğlubiyyətini etiraf etməyə və Ermənistanın kapitulyasiyasına nail olduq. Bəyanatı imzalamağa məcbur etdik.

Qarşıdakı müddətdə isə ATƏT-in Minsk qrupu həmsədrlərinin hər üçü artıq yeni fəaliyyət proqramı təqdim etməli, konkret olaraq neytral mövqe nümayiş etdirərək xalqların sülhə hazırlanması, etnik barışığın təmin olunması kimi məsələlərə yeni canlanma gətirməlidirlər. Nəzərə alsaq ki, Minsk qrupu həmsədrlərinin bu səfəri onların öz təşəbbüsləri ilə olub və onlar Azərbaycana dəvət edilməyib, deməli artıq özləri mövcud vəziyyətlə barışmalı və yeni reallıqlar fonunda konkret təkliflərlə çıxış etməlidirlər”.

***Ceyhun Rasimoğlu***

# “Qarabağda erməni silahlılarının hədəfi nədir?”




“Biz hələ də Qarabağın bəzi ordumuz olduğu bölgələrində erməni silahlılarının gizlənməsinin şahidiyik. Məsələn, bəzi kəndlər elə nöqtədə yerləşir ki, ora erməni silahlılarının gəlişi ciddi sual doğurur. Ehtimal olunur ki, Hadrudun Köhnə Tağlar və Çaylaqqala kəndlərinə erməni hərbçiləri Laçın dəhlizinin çətin keçilən yüksəkliklərindən keçiblər. Rus sülhməramlılarının “diqqətsizliyi” nəticəsində onlar ordumuz tərəfindən nəzarətdə olan torpaqlardan yayınaraq keçiblər”. Bunu SİA-ya politoloq Zaur Məmmədov deyib.

Onun sözlərinə görə, onların hədəfi bizim nəzarət etdiyimiz Hadrut və Şuşa yaxınlığındakı Laçına, Xankəndinə, Xocavəndə gedən strateji əhəmiyyətli yüksəklikləri ələ keçirmək, ərazilərdə münaqişə yaratmaq və əraziyə rus sülhməramlılarını gətirməkdir: “Nəticədə rus sülhməramlılarının “nəzarət coğrafiyası” genişlənməli, rusların kommunikasiyalara nəzarət etməsini reallaşdırılması təmin edilməli idi. Dünən sülhməramlıların cəld şəkildə Şuşa və Hadrut istiqamətində mövqelərini genişləndirməsi və xəritələr çəkməsi bu versiyanın doğruluğunu artırır. Azərbaycan tərəfi bir neçə dəfə Şuşa və Hadrut ətrafındakı erməni qruplarının oranı tərk etməli olduqlarını ruslara bildirsə də, sonuncular erməniləri oralardan qovmaq əvəzinə, silahlı münaqişənin baş tutmasına gətirib çıxaran vəziyyətin yetişməsinə təkan vermişlər, sonrası isə məlumunuzdur”.

# Paşinyanın yüz yerə yozulacaq butulka müəmması...



*Ermənistanın 44 günlük müharibədəki biabırçı məğlubiyyətindən sonra ölkədə acınacaqdı durum yaranıb. İflic olmuş cəmiyyət dərin böhran içərisindədir. Yarıac, yarıtox miskin vətəndaşlarına cənnət vəd edən baş nazir Nikol Paşinyanın yağlı vədlərinin tamamilə yalan olduğu aşkara çıxıb.*

Ərzaq qıtlığı və bahalıq, dramın inflyasiyaya uğraması, o biri tərəfdən müharibənin gətirdiyi məhrumiyyətlər kasıb əhalinin səbrini daşdırıb. Noyabrın 10-dan sonra İrəvanda bir zaman at oynatdığı meydanda undi zəncir çeynəyən ermənilərin gözünə görünməyən saqqallı baş nazir millətinə o qədər yalan satıb ki, daha danışdığı tək-tük düz sözə də inanan yoxdur. Başsız baş nazır paytaxtın Teatr meydanına toplaşan etirazçı kütlə arasından hər gün eşidilən "xain", "alçaq", "Nikol get", "sırtıq maça", "rədd ol" kimi təhqirli sözlərə heç bir cavab tapmır və bunları boyun ardına vurur. Belə görünür ki, o, bircə gün də hakimiyyətdə qalması üçün atası Vovanı da söysələr cavab verməz. Bu məqsədi üçün o, hətta dekabrın 19-dan 21-dək Ermənistanda keçiriləcək matəm günlərindən də istifadə etməyi qərara alıb.

"Daşnaksütyun" partiyasının üzvü İşxan Saqatelyan etirazçılar qarşısındakı çıxışında bildirib ki, erməni millətinin heysiyyatı ilə oynayan baş nazir Nikol Paşinyan matəmdən öz siyasi məqsədləri üçün istifadə edir. O qeyd edib ki, baş nazir Nikol Paşinyan hiyləgərlik edərək müxalifətin mitinqinin təyin edildiyi tarixdə matəm elan edib: "Niyə 45 gün ərzində yas elan etmədi? Çünki hətta yasdan da öz siyasi məqsədləri üçün istifadə edir".

Hikkəsindən boğulan daşnak daha sonra deyib: "Xalqımız ölkəni satan bu adamı qəbul edə və buna dözə bilməz. Ona "butulka tutan" Andronik Koçaryan və bir neçə nəfər tərəfdarı dəstək verir. Nikol Paşinyan saxtakarların lideridir. Bu ölkədə dezinformasiya yayan ilk insan Nikoldur, o yalanın kralıdır". Saqatelyanın sərt ittihamları başadüşüləndir, amma "butulka" məsələsi müəmma olaraq qalır, çünki sitatın müəllifi yüz yerə yozulacaq bu müəmmanı açıqlamır.

Xatırladaq ki, Nikol Paşinyan bir gün əvvəl canlı yayımda dekabrın 19-dan 21-dək Qarabağda döyüşlərdə ölənlər üçün üçgünlük ümumxalq matəmi elan edib.

İrəvanda son günlər hakimiyyət əleyhinə baş verən qızğın hadisələr göstərir ki, bu matəm Paşinyanın öz matəminə də çevrilə bilər. Çünki meydanlarda baş nazirin istefasını və ölkədən çıxmasını nifrətlə tələb edən başıpozuq kütlə ona qəsd də edə bilər. Xüsusilə həbs etdirdiyi keşmiş prezident Robert Koçaryanla üçgünlük baş nazir Serj Sarkisyana sadiq qüvvələr Paşinyana düşmən münasibət bəsləyirlər. Paşinyan orduya ümid bağlasa da məlum olub ki, yeni Baş Qərargah rəisi, general Ovik Kasparyan və ordunun böyük bir hissəsi onun əmrinə tabe olmaqdan boyun qaçırıblar. Paşinyan matəm günlərində ordunu paytaxta yeritmək istəsə də Baş Qərargah rəisi əmri rədd edərək bildirib ki, nə qədər bu vəzifədədir ordu siyasi qalmaqallarda iştirak etməyəcək.

**Vəli İlyasov**

# Ərəb ölkələrindəki erməniləri bundan sonra sərgərdan həyat gözləyir



Yola salmaqda olduğumuz 2020-ci il ərəb ölkələri üçün mühüm hadisələrlə zəngin olub. Vaşinqtonun vasitəçiliyi ilə dörd ərəb dövləti - Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Mərakeş və Sudanın İsraillə diplomatik münasibətləri və iqtisadi əlaqələri bərpa etməsi, habelə BƏƏ, Səudiyyə Ərəbistanı, Misir və Bəhreynin 2017-ci ildə Qətərə tətbiq etdikləri hava, quru və dəniz blokadasının aradan qaldırılması istiqamətində irəliləyişə nail olunması ilin yaddaqalan müsbət hadisələri sayıla bilər. Bununla belə, Liviyada silahlı münaqişə, Suriyadakı vəziyyət, Livanda getdikcə dərinləşən böhranın fəlakət həddinə çatması, Misirlə Efiopiya arasında Böyük Efiopiya Renessans Bəndinin tikintisi üzrə ixtilaf, Yəməndə vətəndaş müharibəsi, Fələstin probleminin kəskinləşməsi, İraqda sabitlik və təhlükəsizlik məsələlərində qeyri-müəyyənlik, Mərakeşlə Əlcəzair arasında Qərbi Səhra uğrunda münaqişənin qızışması yeni ildə münasibətlərin gərgin olacağından xəbər verir.

Bu cür mürəkkəb geosiyasi proseslərin cərəyan etdiyi bir coğrafiyada ərəb ölkələrində məskunlaşmış erməniləri qaranlıq gələcək gözləyir. Məlumdur ki, "əzabkeş xalqın" nümayəndələrinin ən çox məskunlaşdığı ölkə Livandır. Son məlumatlara görə, burada əhalinin 4 faizini təşkil edən ermənilərin (156 min nəfər) sayı sürətlə azalır. Livan mətbuatı yazır ki, bu ilin avqustunda Beyrutda baş verən dəhşətli partlayışdan sonra ermənilər özlərinə yeni yaşayış məskənləri axtarışındadır. Azərbaycanla müharibədə məğlub olan Ermənistanın bu insanları Qarabağda yerləşdirməsi planları da boşa çıxıb. İmkanlı ermənilər Qərbə, xüsusən ABŞ-a, yoxsullar isə digər ərəb ölkələrinə üz tuturlar. Artıq Birləşmiş Ərəb Əmirliklərində Livan və Suriyadan qaçanların sayının 3 min nəfərə çatdığı, Şarjah Əmirliyində fəaliyyət göstərən erməni kilsəsinin yeni miqrantlar üçün hərəkətə keçdiyi bildirilir. Bundan başqa, Küveytə və Qətərə də ermənilərin axını başlayıb. O da bəllidir ki, "əzabkeş xalqın" nümayəndələri həmişə varlı ölkələrdə məskunlaşmağa can atırlar. Maraqlıdır ki, hətta rifah dalınca Bəhreynə gələn 100 erməni belə burada kilsə tikib və bunu KİV-lərdə geniş reklam ediblər. Ermənilərin məskunlaşa bilmədiyi yeganə varlı ərəb ölkəsi isə Səudiyyə Ərəbistanıdır. Ər-Riyadın Ermənistanla diplomatik münasibətləri yoxdur.

I Dünya müharibəsindən sonra ermənilərin ən çox məskunlaşdığı ölkələrdən biri də Misir olub. Hazırda burada təqribən 10 mindən çox erməni ailəsi yaşayır. Onların Qahirədə və İsgəndəriyyədə kilsələri, habelə qəzet və informasiya portalları fəaliyyət göstərir. Ermənilər hökumətdə və parlamentdə də təmsil olunublar. Lakin bu ölkədə də "əzabkeş xalqın" nümayəndələrinin sayı azalır. Hələ Ənvər Sadat və Hüsnü Mübarəkin zamanında sayları 60 min olan ermənilər sürətlə başqa ölkələrə köçürlər. Bu ölkəni pul qazanmaq üçün tərk edən ermənilərdən 1500 nəfəri isə Qətərdə yerləşib. Ümumilikdə, Dohada 5500 erməninin yaşadığı bildirilir.

"Worldwatchmonitor"un məlumatına görə, 2011-ci ildən bəri vətəndaş müharibəsinin davam etdiyi Suriyada yaşayan 100 minə yaxın erməninin artıq 70 mini bu ölkəni tərk edib. BBC telekanalının 2015-ci ildə yayımladığı reportajda qeyd olunurdu ki, onların 15 min nəfəri Ermənistana və Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirilib. Lakin Ermənistan hökumətinin cinayətkarcasına apardığı qeyri-qanuni məskunlaşdırma siyasətinin qurbanına çevrilən bu insanların da gələcək taleyi qaranlıqdır.

Daha bir ərəb ölkəsi - İordaniya Krallığında 3 min erməni yaşayır və onlar ölkənin qeyr-müsəlman əhalisinin əksəriyyətini təşkil edirlər. Lakin statistik məlumatlar göstərir ki, Krallıqda 1967-ci il ərəb-İsrail müharibəsinə qədər onların sayı 6 min nəfər olub və əksəriyyəti ABŞ, Kanada və Avstraliyaya köçüb. Bununla belə, "əzabkeş xalqın" nümayəndələrinin Əmmanda kilsəsi, cəmiyyətləri və məktəbləri fəaliyyət göstərir.

Yuxarıda qeyd edildiyi kimi, Yaxın Şərq və Şimali Afrikada baş verən mürəkkəb geosiyasi proseslər fonunda yaxın illərdə regionda vəziyyətin sabitləşməsi ehtimalları azdır. Bu isə o deməkdir ki, qarşıdakı illərdə ermənilərin ərəb ölkələrindən köçü daha da artacaq. Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrini darmadağın edərək torpaqlarımızı işğaldan azad etməsi başqasının hesabına firavan həyat arzulayan Yaxın Şərq ermənilərinin bərəkətli torpaqlarımızda məskunlaşmaq planlarına həmişəlik olaraq son qoydu. Bundan sonra onları sərgərdan həyat gözləyir.

# Qızıl yatağındakı dəqiqləşdirmələr Ermənistanın xeyrinə deyil

## *Düşmən tərəfinin qızıl ehtiyatları 2 ilə tükənəcək*



"Sotk (Kəlbəcər) qızıl yatağında dəqiqləşmələr hələ başa çatmayıb, ancaq proses bizim xeyrimizə getmir. Yatağın əməkdaşı dedi ki, Rusiya tərəfi yatağın Ermənistanın ərazisində olması ilə bağlı azərbaycanlıları inandıra bilməyib və noyabrın 9-da imzalanmış sənədə əsasən, onun 70%-i düşmən tərəfinə keçə bilməz". SİA xəbər verir ki, bu barədə ermənilərin "Hraparak" nəşri yazıb və əslində qızıl yatağının əsas hissəsinin məhz Azərbaycana aid olduğunu sübut edən faktları bu vasitə ilə saxtalaşdırmağa çalışıb.

**Ermənilər yatağın inzibati binasının onlar tərəfdə qalmasından niyə sevinirlər?**

Maraqlıdır ki, adıçəkilən erməni qəzeti digər vasitələrlə özlərinə təskinlik verməyə cəhd göstərib və bu cəhd əslində çox gülünc təsir bağışlayıb. Misal üçün, "Hraparak" qızıl yatağının inzibati binasının Ermənistan tərəfdə qaldığını bildirib və hətta buna görə nə isə qopardığına sevinirsə, bu zaman həmin məsələyə istehzasız yanaşmaq olmur. Çox yəqin ki, ermənilər Kəlbəcərdə onlara verilən əlavə vaxt müddətində digər əşyaları ilə yanaşı hətta unitazlarını da Ermənistana aparıblarsa, çox yəqin ki, qızıl yatağında qalan inzibati binanın da müxtəlif əşyalarını sökүb özləri ilə birlikdə İrəvana apara biləcəklərinə görə bu qədər sevincək olublar.

Beləliklə, "Baxmayaraq ki, yatağın inzibati binası Ermənistan ərazisindədir, lakin qızıl ehtiyatları Azərbaycanın nəzarəti altına keçib", deyə qeyd edən erməni nəşri qarşıdakı digər problemi də yazıb. "Yataq bir neçə həftə dayana bildi. Əməkdaşlardan yalnız 100 nəfəri 2 il müddətində orada qalacaq və bundan sonra erməni tərəfinin ehtiyatı tamamilə tükənəcək", deyə "Hraparak" təəssüflə yazıb.

**Rövşən RƏSULOV**

# Terroru kim həyata keçirir?

***Artıq heç kim, züsusən də Ermənistan vətəndaşları üçün sirr deyil ki, 44 günlük müharibə zamanı Paşinyan hakimiyyəti yalnız yalan xəbərlər yayıb. Bunu mövcud hakimiyyət rəsmən etiraf da edib. Hətta, ermənilərin hərbi mütəxəssisləri vurğulayırlar ki, belə yalanlar Ermənistan üçün adi haldır. Məsələn, Ermənistan Müdafiə Nazirliyinin Hərbi Nəzarət Xidmətinin keçmiş rəisi Movses Akobyan 19 noyabr tarixində "Hayeli" klubunda keçirdiyi mətbuat konfransında rəsmən etiraf edib ki, onlar üçün 30% yalan qəbulolunandır, amma bu 44 gün ərzində isə Nikolun komandası xalqa yüz faiz yalan xəbərlər verib.***



Bəli, etirafdan da göründüyü kimi, Paşinyan hakimiyyəti erməni xalqını müharibə müddətində tam şəkildə aldadıb. Bu hakimiyyət öz xalqını yalnız yalanlarla bəsləyib. Nikolun hakimiyyəti erməni xalqından məğlubiyyəti gizlədib, özü də bir-birinin ardınca. Həqiqəti gizlədərək, yalandan zəfərli xəbərlər verilib erməni xalqına ki, küçə nümayişçisinin uğursuzluqları örtbasdır edilsin.

Məsələ burasındadır ki, bu qədər yalançılığın, yanlışlığın, xalqı aldatmanın fonunda, bir neçə gündür Nikol Paşinyan hakimiyyəti Ermənistada media terroru anlayışını utanmadan ortaya atıb. Müxtəlif dövlət məmurları, eləcə də Nikol Paşinyan özü bəzi dairələrin onlara qarşı media terroru apardıqlarını, cəmiyyətdə çaxnaşma və narahatlıq yaratdığını iddia edirlər. İddia edirlər ki, hakimiyyəti ələ keçirmək üçün cəmiyyəti iqtidara qarşı təhrik edirlər və bununla da vəziyyəti daha da qarışdıran yalan şayələr yayaraq, durumu çətinləşdirirlər.

Əlbətdə ki, bu cür alçalma yalnız Ermənistan hökumətinin, məhz Paşinyan komandasının ağlına gələ bilərdi. Hakimiyyət itgisi qorxusu ilə yaşayan Paşinyanın, onun məmurlarının kompleks keçirdikləri bəlli məsələ idi, amma bu qədər qorxu içində olmaları mahiyyətlərini daha açıq şəkildə ortaya qoyur. Bu ifadələr, yəni baş nazir komandasının media terror barədə, aranın qarışdırılması haqda ifadələri əslində, müharibə dövründə hökuməti itirməmək üçün yalan söylədiklərini, Qarabağın və Ermənistan dövlətinin maraqlarına əhəmiyyət vermədiklərini aydın formada sübut edir. Əldə olan faktlar var. İndi gəlin görək cəmiyyəti kimlər qorxudur? Görək kimlər təhlükəlidir və terroru törədn kimdir? Özləri, yoxsa ittiham etdikləri və ehyam vurduqları müxalifət dairələri.

Dünəndən bəri, erməni tərəfində 100-dən çox yeni məhbusun olduğu bildirilir. Dünyaya demokratiya dərsi keçmək iddiasında olanlar meydanlarda nümayişçilərə zor tətbiq etmələri az imiş kimi, hələ bir onları həbs edib azadlıqlarından da məhrum edirlər. Bir zaman, daha dəqiq desək ikicə il yarım bundan öncə meydanlarda, küçələrdə kütləyə qoşulan, kütlənin hesabına tanınan və hakimiyyəti qamarlayan Paşinyan indi niyə həmin kütləyə qənim kəsilib? Bu avantürist deyildimi həmin o küçə və meydanlarda xalq adından çıxış edən və kütlənin maraqlarını guya təmsil edən? İndi nə oldu və nə dəyişdi? Deməli, məsələ Nikolun özü ilə əlaqəli olanda kütlə də, xalq da, demokratiya da, söz azadlığı da mahiyyətini itirir və heçə tay olur. Bu, Ermənistanın lovğalandığı dırnaqarası demokratiyadır. Bu məhz Paşinyanın gətirdiyi dırnaqarası söz, ifadə azadlığıdır ki, özünün maraqları ilə toqquşduqda tamamilə yararsız, lazımsız hesab olunur. Hətta bu hakimiyyət utanmadan bunu media terror da adlandırmağa qalxır.

Əsirlərin, ölənlərin, itigin düşənlərin sayının durmadan artması, statistik göstəricilərdə dəyişiklıklər, artımlar təsdiq edir ki, hələ də Ermənistan hakimiyyəti özü informasiya terroru tətbiq edir öz xalqına qarşı. Bunun1a belə, müxalifət ittiham olunur media terrorunda və görünür bu da Nikol hakimiyyətinin məsuliyyəti öz üzərindən atması, ələlxüsus da diqqəti yayındırması cəhdidir.

Yeni məhbuslara, əsirlərə gəlincə, Müdafiə Nazirliyinin təmsil etdiyi hökumət, Ermənistan hökuməti sadəcə cəmiyyəti ələ salır. Hələ də işğalçı ölkə vətəndaşları itgin düşən, əsir götürülənlər barədə bircə məlumat belə almağa müyəssər olmayıb. Müharibə məğlubiyyətlərinin ardınca Ermənistan hakimiyyəti, eləcə də Müdafiə Nazirliyi özladından, yaxınlarından xəbər gözləyənlərin iztirablarını hesaba belə almır. Bu qədərmi çətindir məlumat əldə etmək və onu ötürmək. Yaxud, vətəndaşlarının, özü də yaxınlarını döyüşə göndərib itgisi ilə üzləşən vətəndaşlarının faciəsi bu qədər maraqsızdırmı bu hakimiyyətə? Öz yaxınlarını itirmiş, barəsində heç bir məlumatı olmayan, lakin bilmək arzusunda olanlar xarici dövlətlərə, dövlət başçılarına kömək üçün yalvarırlar. Bu fakt əslində Ermənistanın mövcud hakimiyyətinin mahiyyətini ortaya qoyur və dəyərsizliyini, lazımsızlığını təsdiq edir.

İndi yaxşı-yaxşı fikirləşsinlər görək, terroru kim həyata keçirir? Bu terroru, yəni media terrorunu erməni cəmiyyəti, onun müxalifəti həyata keçirir yoxsa elə paşinyanın özü və ətrafı? Cavab çox sadədir və indi hər kəs yaxşı başa düşür ki, öz yaxınlarını yalan məlumatlar, yalan xəbərlər verildiyindən itirənlər məhz terrora məruz qalıblar. Ölüm sayının miqyasının dəfələrlə məhz bu səbəbə görə, yalan xəbərlərə görə şişməsindən tutmuş, mövcud itgilərə qədər hər bir çatışmazlıq məhz Ermənistan hökumətinin, paşinyan hakimiyyətinin törətdiyi terrorun məntiqi nəticəsidir. Məhz bu məqamları dərk edən kütlə artıq Nikola, onun dediklərinə inanmır. Ümumiyyətlə, ona indi heç kim inanmır və bunu kimdənsə gözləmək də sadəlövhlük olardı. Daha dəqiq desək, artıq heç kim də Nikol Paşinyanı, onun komandasını ciddi qəbul etmir və cəmiyyət üçün ən böyük terorçu elə onlar özləri hesab olunurlar.

***İnam Hacıyev***

---

# "Həmsədrlər regionda tamamilə yeni bir vəziyyət yarandığını etiraf edirlər"

"30-ilə yaxın davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi artıq tarixə qovuşub. Son 17 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə öz hərbi qüdrətini və iqtisadi imkanlarını artıran, uğurlu diplomatik fəaliyyət həyata keçirən Azərbaycan öz gücü sayəsində Dağlıq Qarabağ münaqişəsinin həllinə nail oldu. Dağlıq Qarabağ münaqişəsini nizama salmaq missiyasını öz üzərinə götürmüş ATƏT-in Minsk qrupu isə 28 il ərzində iki ölkə arasındakı münaqişənin həllində heç bir addım atmadı". Bunu SİA-ya millət vəkili Pərvin Kərimzadə bildirib.

Millət vəkili qeyd edib ki, Azərbaycan hökuməti dəfələrlə işğalçı Ermənistan tərəfindən həyata keçirilən qeyri-qanuni məskunlaşdırma siyasəti ilə bağlı ciddi etirazını ATƏT-in Minsk qrupunun həmsədrləri qarşısında qaldırıb, BMT Təhlükəsizlik Şurasının Azərbaycan ərazilərinin işğalına müvafiq olaraq 822, 853, 874 və 884 saylı qətnamələrinin icrasını tələb edib. ATƏT-in Minsk qrupu bu illər ərzində təcavüzkar Ermənistanın bütün beynəlxalq norma və konvensiyalara zidd olaraq Azərbaycanın işğal olunmuş ərazilərində süni və qanunsuz məskunlaşma aparmasına reaksiya vermədi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini nizama salmaq missiyanı yerinə yetirmək əvəzinə susqun müşahidəçiyə çevrildi. Minsk qrupu həmsədr ölkələrinin liderləri münaqişənin hərbi həlli olmadığını iddia etsə də,



Azərbaycan bunu hərbi-siyasi vasitələrlə etdi.

Səbr kasası dolub daşan Azərbaycan münaqişənin beynəlxalq hüquq çərçivəsində həlli variantının olduğunu sübuta yetirdi, 44 günlük Vətən müharibəsi dövründə işğalçı Ermənistanı döyüş meydanında darmadağın edərək kapitulyasiya aktına imza atmağa məcbur etdi. Beynəlxalq vasitəçi olan ölkələrin hər biri öz imkanlarından, potensialından istifadə edərək Ermənistanı işğalçılıq siyasətindən çəkindirsəydi bu faşist ideologiyasına köklənmiş ölkənin ərazi iddialarından irəli gələn tarixi ədalətsizliyə çoxdan son qoymuş olardı.

Ölkə Prezidentimiz İlham Əliyev dekabrın 12-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, ABŞ-dan olan həmsədri Endrü Şoferi, Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul edərkən də qonaqların diqqətinə çatdırıb ki, Minsk qrupunun həmsədrləri işğal olunmuş ərazilərə dəfələrlə səfər edib, Ermənistan rejiminin hərbi cinayətlərinin şahidi olublar:" BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə, ATƏT-in qərarlarına, digər beynəlxalq təşkilatların qərarlarına baxmayaraq, bu qədər illər ərzində münaqişə niyə həll olunmurdu? BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü öz imkanlarından, potensialından istifadə edə bilmədi ki, ermənilər çıxmağa məcbur olsun. Hətta bəzi ərazilərdən çıxara bilmədi. Onlar bacarmadı, yoxsa istəmədi? Bu, açıq sual olaraq qalır. Lakin hazırda bu, artıq fərq etmir. Münaqişə həll olunub. Azərbaycan bunu hərbi-siyasi vasitələrlə etdi. Tez-tez sizdən və rəhbərlərinizdən, eləcə də yüksək rütbəli rəsmilərinizdən eşidirdim ki, münaqişənin hərbi həlli yoxdur. Mən isə deyirdim: Var! Tarix göstərdi ki, mən haqlı idim. Var idi! Fikrimcə, "hərbi variant yoxdur" deyənlərin indi özləri anlayır ki, var idi, çünki onlar, sadəcə, mövcud vəziyyəti olduğu kimi saxlamaq istəyirdilər".

Hazırda ATƏT-in Minsk qrupunun həmsədrləri regiona sabitliyin, rifahın gətirilməsi üçün tamamilə yeni bir vəziyyət yarandığını etiraf edirlər. Onlar da yaxşı bilirlər ki, 44 günlük Vətən müharibəsinin nəticələri regionda tamamilə yeni reallığa - yalnız hərbi-siyasi baxımdan deyil, geosiyasi və iqtisadi kontekstdə təhlükəsizlik formatının yaradılmasına təkan verib. Artıq ATƏT-in Minsk Qrupu gələcək mandatının regionda söz sahibinə çevrilən Azərbaycandan asılı olduğunu qəbul etməlidir.

# "HRAPARAK": "Artsaxda" vəziyyət partlayış həddinə çatıb"



Ermənistanın aparıcı KİV-lərindən hesab edilən "Hraparak" qəzetinin yazdığına görə, "siyasi güclər" Araik Arutunyana olan etimadın sürətlə aşağı düşməsi səbəbilə "daxili siyasi" böhrandan çıxmaq üçün müzakirələrə başlayıblar.

"Artsaxda yaranmış situasiyada Araik Arutunyanla eyni səviyyədə Nikol Paşinyan da ittiham olunur", deyə yazan "Hraparak" əlavə edir ki, birinci mərhələdə fəal şəkildə "güc strukturları" rəhbərlərinin istefaları müzakirə edilir. SİTAT: "Bizə xəbər veriblər ki, Araik Arutunyanın "prezident" vəzifəsində qalması böyük şübhə altındadır. Bununla yanaşı, indi "milli barışıq hökuməti" ətrafında Araik Arutunyanın rıçaqlarının əhəmiyyətli dərəcədə azaldılması ətrafında müzakirələr aparılır. Araik Arutunyanın istefası və təcrid edilməsi tələbini Daşnaksyutun təmsilçisi Vitali Balasanyan, həmçinin "vətəndaş" təşəbbüs qrupları irəli sürürlər".

O da iddia edilir ki, bir müddət əvvəl Araik Arutunyanın döyüş vaxtları Paşinyana zəng edərək, 10 gün hərbi dəstək göstərməsini istəməsi, həmin dəstəyin gəlməməsi ətrafındakı telefon danışığının da məhz Arutunyan tərəfindən yayılıb. Buna səbəb kimi Arutunyan həmin vasitə ilə özünə qarşı narazılıq dalğasının artmasını yüngülləşdirməsi cəhdi göstərilir.

***Rövşən***

***Stalin Bağırovun cavab mətbunu oxuyandan sonra əlini stola çırpıb demişdi- Qafqazda ərazi mübahisələri məsələsi bitdi! Bir daha bu barədə heç bir təklif, xahiş, müzakirə eşitmirəm...***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Yazı Azərbaycan Respublikası Prezisenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Qarabağ SSRİ dövründə: Bağırov problemi necə həll etdi? - FAKTLAR

**II HİSSƏ**

Əvvəli burada https://sia.az/az/news/politics/842848.html

Dağlıq Qarabağın bir tərəfdən Azərbaycanın tarixi torpaqları kimi onun tərkibində saxlanması və bununla da digər Azərbaycan torpaqları ilə tarixi bağlılıq ənənələrini davam etdirməsi, digər tərəfdən DQMV-yə Azərbaycanın göstərdiyi xüsusi qayğı bu diyarın Sovet hakimiyyəti illərində sosial-siyasi və iqtisadi inkişafı üçün müstəsna şərait yaratdı.

Bütün bunlar Vilayət Statistika idarəsinin Stepanakertdə nəşr etdirdiyi statistik məcmuələrdə də öz əksini tapmışdı. Statistik məcmuələrdən biri muxtar vilayətin yaranmasından keçən 40 il ərzində (1923-1963) mədəniyyət, iqtisadiyyat, səhiyyə və s. sahələrdəki vəziyyət barədə yazmışdır: İnqilaba qədər (1917-ci il Oktyabr inqilabı) Dağlıq Qarabağda orta ixtisas təhsilli müəssisələr, kütləvi kitabxanalar, teatrlar yox idi. Şuşa şəhərində yalnız 3 xüsusi mədəni-maarif müəssisəsi və 1 xüsusi kinoteatr var idi. Hazırda DQMV-də 1000 nəfər şagirdin təhsil aldığı 5 xüsusi orta təhsil müəssisəsi vardır. 930 min nüsxədən çox kitab fondu olan 164 kitabxana fəaliyyət göstərir. Kütləvi kitabxanalardan 150-si kənd yerlərindədir, onların kitab fondu 630 min nüsxəyə çatır. Stepanakert şəhərində M.Qorki adına Erməni Dövlət dram teatrı, Dövlət mahnı və rəqs ansamblı vardır. Vilayətdə 176 klub müəssisəsi vardır... Dağlıq Qarabağ elmi müəssisələrə də malikdir... Muxtar Vilayətin yaranmasının ilk günündən ana dilində (erməni dilində) "Sovetakan Karabax" qəzeti çap olunur. Kənd təsərrüfatından bəhs olunarkən Dağlıq Qarabağın xış diyarından traktor və kombayn diyarına çevrildiyi təsdiq olunur. 1963-cü ilin əvvəllərində Dağlıq Qarabağın kənd təsərrüfatında 1,4 min ədəd traktor, 224 kombayn, 670 yük avtomobili və minlərlə digər müasir kənd təsərrüfat maşını olduğu göstərilir. 40 il ərzində Muxtar Vilayətinin sənaye potensialının reallaşdırılmasında da xeyli iş görülmüşdü. 1940-cı ilə nisbətən 1962-ci ildə bütün sənayenin ümumi məhsulu 341%, elektrik enerjisi 945 % və sairə artmışdı. 1960-cı illərin ortalarından sonra da vilayətin sosial-iqtisadi həyatı dinamik inkişaf etmişdi. Sosial inkişafa dair göstəricilərə görə DQMV-nin göstəriciləri, nəinki Azərbaycan SSR və Ermənistan SSR, hətta bütövlükdə SSRİ üzrə rəqəmlərdən də xeyli yüksək idi. Məsələn, hər 10 min nəfərə xəstəxana çarpayısı ilə təminat Ermənistan SSR-də 86,2, Azərbaycan SSR-də 97,7 olduğu halda DQMV-də 101,7 idi və s.

Separatçıların uydurduqları saxta məlumatların baş alıb getdiyi dövrdə də Azərbaycan onun tərkib hissəsi olan DQMV-nin sosial-iqtisadi vəziyyətinə dair faktları olduğu kimi geniş ictimaiyyətin müzakirəsinə çıxarmaqdan çəkinməmiş, əksinə mövcud vəziyyətin daha da aydınlaşdırılmasında maraqlı olmuşdu. Məsələn, 1988-ci ilin gərgin mart günlərində Azərbaycan SSR Nazirlər Soveti yanında Xalq Təsərrüfatını İdarəetmə İnstitutunda DQMV-nin iqtisadiyyatı: problemlər və perspektivlər mövzusunda "dəyirmi masa" təşkil edilmiş, onun materialları çap olunub geniş ictimaiyyətə çatdırılmışdı.

Həmin "dəyirmi masa"da SSRİ Elmlər Akademiyasının akademiki, "Əsas fondlar, kapital qoyuluşu və yeni texnikanın iqtisadi səmərəliliyi" problemi üzrə elmi şuranın milliyyətcə erməni olan sədri T.S.Xaçaturov müzakirələrin sonundakı çıxışında real vəziyyəti təsdiq etməyə məcbur olaraq demişdir: "...Etiraf edim ki, mən bu məsələlər üzrə kifayət qədər tam informasiyaya malik deyildim və bizim söhbətimiz bu boşluğu müəyyən qədər doldurmağa imkan verdi".

Göründüyü kimi, iqtisadçı (!) akademik T.S.Xaçaturov belə mühüm məsələdə "kifayət qədər informasiyası olmadığını" etiraf edir. Əslində isə, Dağlıq Qarabağın Azərbaycandan qoparılması uğrunda mübarizədə erməni separatçılarına real vəziyyəti əks etdirən informasiya deyil, əksinə informasiyasızlıq lazım idi.

1920-30-cu illərdə istədiklərinə nail ola bilməyən ermənilər Böyük Vətən Müharibəsindən sonra yenidən fəallaşdılar. 1945-ci ilin noyabrında Ermənistan KP MK-nın katibi Qr.Arutinov İosif Stalinə müraciət edərək, Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin Qarabağ vilayəti adı altında Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında məsələ qaldırdı. Həmin müraciətin mətnini Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi katibi G.M.Malenkov 1945-ci il 28 noyabrda Azərbaycan KP MK-nın 1-ci katibi M.Bağırova göndərdi. Malenkov Ermənistan KP MK-nın qaldırdığı məsələyə öz rəyini bildirməsini ona təklif etdi. Bağırov bununla əlaqədar 1945-ci il dekabrın 10-da cavabını Moskvaya bildirdi:

"Tam məxfidir. Malenkov yoldaşa.

Ermənistan Kommunist (bolşeviklər) Partiyası MK-nın katibi Arutinov yoldaşın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-nin tərkibinə daxil edilməsi haqqında təklifi ilə əlaqədar Sizin teleqramınıza cavab olaraq məlumat verirəm:

DQMV-nin ərazisi qədim zamanlardan, mərkəzi 1747-ci ildə Qarabağlı Pənah xan tərəfindən qala kimi tikdirilmiş Pənahabad şəhəri olan Qarabağ xanlığının tərkibində olmuşdur. 1826-cı ildə Qarabağ çar Rusiyasına birləşdirilmişdir. Sonralar indiki muxtar vilayətin ərazisi Yelizavetpol quberniyasının Şuşa, Cavanşir, Qaryagin və Qubadlı qəzalarının tərkibində olmuşdur. 1918-1920-ci illərdə müsavatçıların Azərbaycanda və daşnakların Ermənistanda ağalığı dövründə müsavat hökuməti tərəfindən mərkəzi Şuşa (keçmiş Pənahabad) şəhəri olan general-qubernatorluq təşkil edilmişdir. 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra ilk dövrlərdə bütün Qarabağın təsərrüfat-siyasi həyatına rəhbərlik vahid Vilayət İnqilab Komitəsi tərəfindən həyata keçirilirdi. 1923-cü ildə Qarabağın əsasən, ermənilərin məskunlaşdığı dağlıq hissəsinin Ermənistan SSR-ə birləşdirilməsi məsələsi qaldırıldı. Lakin bu ərazinin Ermənistan SSR ilə ümumi sərhədlərinin olmaması və Ermənistandan yalnız azərbaycanlıların yaşadığı Qubadlı, Laçın, Kəlbəcər və Dəstəfur rayonları ilə ayrılması səbəbindən, partiya orqanlarının göstərişi əsasında Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 7 iyul 1923-cü il tarixli dekreti ilə mərkəzi Xankəndi, indi Stepanakert adlanan Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. Beləliklə, DQMV ərazi cəhətdən heç vaxt Ermənistan SSR-ə bitişik olmamışdır və hazırda da bitişik deyildir.




Azərbaycanda Sovet hakimiyyəti illərində Dağlıq Qarabağda vilayətin təsərrüfat-siyasi və mədəni inkişafı sahəsində böyük işlər görülmüşdür. Bu inkişafın ən parlaq nümunələrindən biri - DQMV-ın hazırkı mərkəzi Stepanakert şəhərinin başlı-başına buraxılmış və dağıdılmış bir kənddən Azərbaycanın ən gözəl, abad və mədəni şəhərlərindən birinə çevrilməsidir. Azərbayan SSR-nin bütün ali təhsil məktəbləri və texnikumları tələbələrinin 20,5%-ni əksəriyyəti Dağlıq Qarabağ Muxtar Vilayətindən olan ermənilər təşkil edir. Respublikanın partiya, sovet, təsərrüfat rəhbərləri-Azərbaycan K(b)P MK-nın katibləri, müavinləri, xalq komissarları, xalq komissarları müavinləri və s. arasında Dağlıq Qarabağdan olan yoldaşlar da az deyildir.

Bununla belə, biz DQMV-nin Ermənistan SSR-in tərkibinə qatılmasına etiraz etmirik, lakin muxtar vilayətin tərkibində olmasına baxmayaraq, hazırda da əsasən, azərbaycanlıların yaşadığı Şuşa rayonunun Ermənistan SSR-ə verilməsinə razı deyilik. Şuşa şəhəri bina edildiyi gündən Qarabağın inzibati-siyasi və mədəni mərkəzi olmaqla yanaşı, həm də Azərbaycan xalqının öz müstəqilliyi uğrunda İran işğalçıları ilə apardığı mübarizədə müstəsna rol oynamışdır. Ən qaniçən fatehlərdən biri, Zaqafqaziya xalqlarının cəlladı Ağa Məhəmməd şah Qacar, məhz Şuşada öldürülmüşdür. Azərbaycan xalqının zəngin musiqi mədəniyyəti bu şəhərdə formalaşmışdır. İbrahim xan, Vaqif, Natəvan və digər bu kimi görkəmli siyasət və mədəniyyət xadimlərinin adları onunla bağlıdır. Eyni zamanda, ÜİK(b)P MK-nın nəzərinə çatdırmağı zəruri hesab edirik ki, DQMV-nin Ermənistan SSR-in tərkibinə daxil edilməsi məsələsinə baxılarkən, Ermənistan SSR-in Azərbaycan Respublikasına bitişik olan və əsasən, azərbaycanlıların yaşadığı Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının Azərbaycan SSR-in tərkibinə daxil edilməsi məsələsinə də baxılmalıdır. Bu rayonların mədəni və iqtisadi cəhətdən son dərəcədə geridə qalmasını nəzərə almaqla, bunların Azərbaycana verilməsi əhalinin maddi-məişət şəraitini və ona mədəni-siyasi xidmət işini yaxşılaşdırmağa imkan yaradırdı.

ÜİK(b)P MK-dan yuxarıda göstərilənlərdən əlavə aşağıdakı məsələlərə baxılmasını xahiş edirik:

Gürcüstanlı yoldaşlar Azərbaycan SSR-in Balakən, Zaqatala və Qax rayonlarının Gürcüstan SSR-in tərkibinə daxil edilməsi məsələsini qoyurlar.? Göstərilən rayonlarda əhalinin ümumi sayı 79 000 nəfər olduğu halda cəmi 9000 gürcü-inqiloyun yaşamasına baxmayaraq biz bu məsələyə etiraz etmirik, lakin bu məsələ ilə bir zamanda, Gürcüstan SSR-in demək olar yalnız azərbaycanlıların yaşadığı və bilavasitə Azərbaycan SSR-ə bitişik olan Borçalı rayonunun Azərbaycan SSR-nin tərkibinə daxil edilməsi məsələsinə də baxılmalıdır.

Və nəhayət biz, Dağıstan SSR-in keçmişdə Azərbaycanın bir hissəsi kimi Bakı quberniyası tərkibinə daxil olan və hazırda Azərbaycan SSR-ə bitişik olan Dərbənd və Qasımkənd rayonları ərazilərinin Azərbaycan SSR tərkibinə qatılması məsələsini nəzərdən keçirmənizi xahiş edirik. Bu rayonların əhalisi əsasən azərbaycanlılardan ibarətdir, özü də maldarlıqla məşğul olan bu əhalinin yarıdan çoxu ilin 9 ayını Azərbaycan ərazisində keçirir.

Qaldırılmış bütün məsələlər üzrə təkliflərin hazırlanması üçün tərkibinə marağı olan hər bir respublikadan nümayəndələr daxil edilməklə ÜİK(b)P MK komissiyasının yaradılmasını məqsədəuyğun hesab edirik.

Azərbaycan KP MK 1-ci katibi M.C.Bağırov

10 dekabr 1945-ci il

Bakı şəhəri .

Bəzi mənbələrə görə, Stalin Bağırovun cavab məktubunu oxuyandan sonra əlini stola çırpıb demişdi- Qafqazda ərazi mübahisələri məsələsi bitdi! Bir daha bu barədə heç bir təklif, xahiş, müzakirə eşitmirəm...

Bundan sonra ermənilər uzun müddət Qarabağ məsələsini qaldırmağa cürət etmədilər.

***Davamı olacaq***

***Altay***

***Yazıda Elmlər Akademiyasının Tarix İnstitutunun materiallarından istifadə edilmişdir***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

17 dekabr

# Kriptovalyutalar futbol bazarını necə ələ keçirir?




***Noyabr ayında rekord qiymətə -16 min dollara çatan bitkoinin kriptovalyuta platformasının artıq bir neçə ildir idmana, xüsusi ilə futbola yatırımları artır.***

Son bir il ərzində İngiltərə Premyer Liqasının əksər klubları populyar rəqəmsal platformalarla müqavilə imzalayıblar. "CoinDeal" platforması "Vulverhempton"un sponsoru olub, "Storm-Gain"in loqosu isə "Nyukasl" formasının üzərinə yazılır. Bu sahəyə hər kəsdən çox yatırımı "eToro" şirkəti edib. Adıçəkilən şirkət düz 6 İPL klubuna sponsorluq edir- "Aston Villa", "Everton", "Tottenhem", "Kristal Pellas", "Lester" və "Saumphempton". Amma bu sahədə digər klublar üçün yol açan ilk komanda London "Arsenal"ı olub. "Topçular" hələ 2018-ci ildə "CashBet Coin" platforması ilə əməkdaşlıq müqaviləsi imzalanıb. "Van Hawke Sports" reklam şirkətinin icraçı direktoru Sanni Sinqx deyir: "İPL klublarının rəhbərləri kriptovalyutanın marketinq potensialını digərlərindən qabaq anladılar".

Keçən mövsüm "Uotford"un idman geyimini bitkoin loqosu bəzəyirdi. Loqoya görə, kluba heç nə ödəmirdilər, onu "Sportsbet" bukmeker kontoru ilə sponsorluq müqaviləsi əsasında formanın üzərinə yerləşdirmişdilər.

Bukmeker kontorunun marketinq direktoru Castin Le Brokk deyir: "Biz yeni başlayanda kriptovalyuta cəmiyyəti bizi dəstəklədi, biz düşündük ki, onların loqosunu "Utoford"un formasının üzərinə yerləşdirməklə onlara təşəkkür etmiş olarıq, həm də borcumuzdan çıxarıq".

Baxmayaraq ki, İPL təmsilçisi bitkoin nişanını formanın üzərinə pulsuz vurub onlar bundan gəlir götürə biləcəklər. Belə ki, hər bir bitkoin sahibi "arılar"ın stadionundan özü üçün reklam lövhəsi ala bilər və ya xüsusi VİP-kriptolojada özünə oturacaq yeri əldə edə bilər. Bu yay Türkiyədə məskunlaşan kriptovalyuta birjası "BtcTurk" futbol üzrə Türkiyə qadın və kişi yığmalarının baş sponsoru oldu. Bu onları milli komanda ilə müqavilə imzalamış ilk kripto valyuta platformasına çevirdi.

Kriptovalyuta digər liqalarda da böyük uğur qazanmaqdadır. ABŞ-da çıxış edən "Mayami Dolfins" futbol komandası LTC platforması üzərindən ödənişləri qəbul edir, Lisabon təmsilçisi "Benfika" bitkoinlərlə suvenir satışına başlayıb, Madrid "Real"ı isə özü haqqında məlumatları yerləşdirmək üçün "Fantastec"in blokçeynindən istifadə etməyə başlayıb. Futbolçularda öz növbələrində klublardan geri qalmamağa çalışırlar. Ronaldinyo "World Soccer Coin" şirkətinin köməyi ilə öz şəxsi kripto valyutasını dövriyyəyə buraxıb "Ronaldinho Soccer Coin". Xames Rodrigesin adına olan bitkoinlər isə gizli hərracda cəmi 12 saniyəyə satılıblar.

Xüsusi ilə koronavirus səbəbindən yaranmış vəziyyətə görə, böyük pullar itirən əksər Avropanın top-klubları maliyyə itkilərini bir qədər kompensasiya etmək üçün kriptovalyuta platformaları ilə əməkdaşlıq etməkdə maraqlıdırlar.

***İlkin Abbasov***

# Əllərin isti su ilə yuyulması dərini qurudur, çat və qabıqlanma yaradır

Yeni növ koronavirus (COVID-19) infeksiyasından qorunmaq yollarından biri də əllərin gigiyenasıdır. Əvvəllər əlləri 2-3 dəqiqə müddətində isti su altında sabunla yumaq tövsiyə olunurdu. Lakin həmin gigiyenik qaydaya əməl edilməsi dəri quruluğu problemi yaradır. Ovuc və pəncə altından başqa dərinin bütün bölgələrində piy vəzləri var. Mütəmadi olaraq həmin piy vəzilərindən yağ ifraz olunur, daim dərini yağlandırır və onun elastikliyini təmin edir. Çünki bütün dəri örtüyü hərəkətdədir və onun elastik olmağı vacibdir. İsti su ilə əlləri yumaq təbii yağlanmanı tamamilə aradan qaldırır və nəticədə dəri tam yağsız qalır, quruyur və elastikliyini itirir. Hətta çat və qabıqlanma kimi problemlər meydana çıxır.

AZƏRTAC xəbər verir ki, bu sözləri Dövlət Gömrük Hospitalının həkim-dermatoloqu Sevinc Kərimova deyib. Onun dediyinə görə, əllərin yuyulduğu su həddindən çox isti olmamalıdır, onun cüzi ilıq və otaq havasına uyğun temperaturda olması məsləhətdir. Əlləri hər dəfə sabunla yumaq və tez-tez spirtdən istifadə etməyə də ehtiyac yoxdur, çünki etil spirti də yağları parçalayır, məhv edir və dəri yağsız qalır: "Maddələr mübadiləsi normal getmədiyi halda avitaminoz, yəni vitamin çatışmazlığı yaranır. Qidalanma düzgün olduqda bütün orqanizm, o cümlədən də dəri özünə lazım olan maddələri alır. Mütəmadi olaraq nəmləndirici əl kremlərindən, xüsusilə tərkibində lanolin, vazelin olan kremlərdən qış aylarında istifadə etmək məsləhətdir. Şaxtalı havalarda isti əlcəklər geyinmək də dərini qurumaqdan qoruyur", - deyə həkim-dermatoloq bildirib.



# Mourinyo: "Mançester Yunayted"də mənə vaxt verilmədi



"Mançester Yunayted"in sabiq baş məşqçisi Joze Mourinyo klubda işlədiyi vaxtları xatırlayıb. "Goal.com" xəbər verir ki, hazırda "Tottenhem"i çalışdıran 57 yaşlı mütəxəssis "qırmızı şeytanlar"da ona yetəri qədər vaxt verilmədiyini deyib: "Karyeramın müəyyən mərhələlərində işlədiyim komandalarda lazımı nəticə üçün çox vaxta ehtiyacım olmayıb. Bu, "Portu"da, "Real"da, "Çelsi"də də oldu. Hər şey bizim xeyrimizə işlədi və nəticə əldə etmək çox çəkmədi.

Özümdə yeni bir şeylər sınamaq, başqa ölkələrə səyahət etmək, qalib gəlmək, yeni təcrübələr qazanmaq istəyirdim. İrəliləyiş əldə etmək üçün vaxta ehtiyacım olduğunu anladığım ilk klub "Mançester Yunayted" idi. Amma orada mənə həmin zaman verilmədi. Prosesin ortasında artıq komandadan ayrıldığımı hiss etdim. Eyni zamanda özümə başqalarının fikirlərinə hörmət etməyi də öyrətmişdim. Komandada əlimdən gələni etdim. İndi isə yoluma davam edirəm. Mən də xoşbəxtəm, onlar da. Əla münasibətlərimiz var. Bir klubdan ayrılanda həmişə onlar haqqında danışmaqdan qürur duya bilərəm".

# "Milan" və "Yuventus"un İsko planı



"Real"ın futbolçusu İsko karyerasını A Seriyasında davam etdirə bilər. Qol.az "Calciomercato"ya istinadən xəbər verirki, "Yuventus" 28 yaşlı yarımmüdafiəçi ilə yaxından maraqlanır. Həmçinin "Milan" da ispaniyalı oyunçunu heyətinə cəlb etmək niyyətindədir. Lakin klub üçün əsas problem futbolçunun maaşını ödəməkdir. Qeyd edək ki, İsko 2013-cü ildən Madrid təmsilçilsində çıxış edir.

# Gələn il neftin qiyməti 44 dollar olacaq



Dünya Bankı 2021-ci ildə neft qiymətlərinin 44 dollar/barrel olacağını proqnozlaşdırır. Xezerxeber.az banka istinadla xəbər verir ki, 2022-ci il üzrə proqnoz isə 50 dollar/barrel səviyyəsindədir. Bank gələn il neft qiymətində artım gözləməsinə baxmayaraq, qiymətin pandemiyadan əvvəlki dövr üzrə göstərici ilə müqayisədə 5 faiz aşağı olacağını bildirib.

***Baş redaktor:***
**Bəhruz Quliyev**
***Baş redaktorun müavinləri:***
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**